GÜNDOĞAR

3 sentyabr 2017-ci il № 25-26 (6649) İCTİMAİ-SİYASİ QƏZET Qəzet 1931-ci ildən çıxır. e-mail: gundogarqazeti@box.az

Təsisçilər: Neftçala Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi

DÖVLƏT PROQRAMI – PAMBIQÇILIĞIN İNKİŞAFINA MÜHÜM TƏMİNAT

İqtisadiyyat çox geniş və çoxşaxəlidir. Onun ən mühüm və ən gərəkli sahələrindən birini də kənd təsərrüfatı təşkil edir. Kənd təsərrüfatını inkişaf etdirmədən ölkənin ərzaq təhlükəsizliyini təmin etmək, dünya bazarına çıxmaq, kənd əhalisinin məşğulluğunu artırmaqla onların dolanışıq səviyyəsini yüksəltmək mümkün deyildir. Prezident İlham Əliyevin bu sahənin inkişafını prioritet elan etməsi, onun yenidən qurulmasına diqqəti artırması da bununla bağlıdır. Özü də təkcə pambıqçılığa deyil, kənd təsərrüfatının digər sahələrinin inkişafına da eyni səviyyədə qayğı göstərilir, bununla əlaqədar ardıcıl tədbirlər görülür.

Aran rayonları üçün pambıqçılıq xüsusilə önəmlidir. Kənd təsərrüfatının bu gərəkli sahəsinin inkişafına ilk start ötən ilin payızında verildi. Sentyabrın 17-də dövlət başçısı cənab İlham Əliyevin sədrliyilə Sabirabadda keçirilən respublika müşavirəsindən sonra kənd əməkçiləri bir daha əmin oldular ki, ölkəmizdə "ağ qızıl"ın doğrudan da ağ günləri başlayır. Müşavirədəki parlaq nitqində bu sahənin inkişafı ilə bağlı dövlətin prioritetlərini elan edən Prezident İlham Əliyev dedi: "Bu bir başlanğıcdır və əminəm ki, bundan sonra da pambıqçılıq Azərbaycanda sürətlə inkişaf edəcək, geniş vüsət alacaq."

Bu il martın 28-də Saatlıda dövlət başçısı cənab İlham Əliyevin sədrliyi ilə keçirilən pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsi bunu bir daha təsdiqlədi. Pambıqçılıqdakı mövcud vəziyyətə aydınlıq gətirən Prezident İlham Əliyev dedi: "Hesab edirəm ki, bütün bu kompleks tədbirlər nəticəsində bu il rekord nəticə gözlənilir. Biz əkin sahələrini böyük dərəcədə genişləndirdik. Son məlumatlara görə, bu il 136 min hektarda pambığın səpini gözlənilir və orta məhsuldarlıq 20 sentner səviyyəsində olmalıdır. Nəzərə alsaq ki, bu gün biz həm müasir texnika alırıq, həm bütün digər tədbirləri ən yüksək səviyyədə görürük, əlbəttə, gələcək illərdə məhsuldarlıq daha da artmalıdır."

Məsələ qəti qoyulmuşdu. Yol aydın idi. Pambıqçılıq sürətlə inkişaf etdirilməli, bu sahə durmadan genişləndirilməlidir. Bunu rayonumuzun timsalında da əyani şəkildə görürük. Bu il rayonda 11111 hektar sahədə pambıq əkilmişdir ki, bu da ötən illə müqayisədə 7,2 dəfə, 2015-ci illə müqayisədə isə 48 dəfə çoxdur. Göründüyü kimi pambıqçılıq sözün əsl mənasında böyük sürət götürüb. Ötən əsrin 70-ci illərində olduğu kimi bu gün də insanlar "ağ qızıl" tarlalarında böyük həvəslə çalışır, dolanışıqlarını təmin edirlər. Kənd əhalisinin məşğulluğu əvvəlki illərlə müqayisədə dəfələrlə artıb. Yəqin ki, qarşıdakı illərdə bu daha da yüksələcəkdir. Zəhmətlərinin bəhrəsini görən insanlar pambıq sahələrində daha mütəşəkkil çalışacaqlar.

Prezident İlham Əliyevin 13 iyul 2017-ci il tarixli sərəncamı ilə "Azərbacan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiqlənməsi bu sahənin gələcək uğurlarına əsl dövlət təminatıdır. Nazirlər Kabinetinə tapşırılmışdır ki, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və İqtisadiyyat Nazirliyi ilə birlikdə Dövlət Proqramında qarşıya qoyulan tədbirlərin maliyyələşdirilməsini təmin etmək məqsədilə hər il dövlət büdcəsi və Dövlət İnvestisiya Proqramı tərtib edilərkən zəruri vəsaitin nəzərdə tutulmasını təmin etsin. Kənd Təsərrüfatı Nazirliyi İqtisadiyyat Nazirliyi ilə birlikdə Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirməklə yanaşı bu tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

Bu ali dövlət sənədində pambıqçılığın mövcud vəziyyətindən tutmuş, onun məqsəd və vəzifələri, inkişaf istiqamətləri, maliyyə mənbələri, Proqramın icrasından gözlənilən nəticələr aydın əks olunmuşdur. Bununla əlaqədar təsdiq olunan Tədbirlər Planında pambıqçılığın inkişafı üzrə institusional tədbirlərin həyata keçirilməsi, bu sahədə elmi təminatın və kadr potensialının gücləndirilməsi, pambıqçılığın infrastruktur təminatının yaxşılaşdırılması, pambıqçılıqda marketinq fəaliyyətinin gücləndirilməsi, ixracın təşviqi və digər tədbirlər mühüm məsələlər kimi qarşıya qoyulmuşdur.

Prezident İlham Əliyev ona nail olmağa çalışır ki, kənd yerlərində adamların məşğulluğu artsın, onlar daha yaxşı və firavan dolansınlar. Dövlət başçısının Saatlıda keçirilən müşavirədəki nitqində söylədiyi fikirlər bunu bir daha təsdiqləyir: "Əlbəttə, pambıqçılığın inkişafı ölkəmizə əlavə gəlir gətirəcək. Ancaq istəyirəm biləsiniz, bu gəlir neftdən əldə olunan gəlirlə müqayisə oluna bilməz. Neft satışından ölkəmizə milyardlarla dollar valyuta gəlir. Bu il əgər neftin qiyməti 40 dollar səviyyəsində olarsa, — bizim büdcədə bu rəqəm nəzərdə tutulub, — ölkəmizə 5 milyard dollardan çox valyuta gələcək. Ona görə pambıqçılığın inkişafı ilk növbədə məşğulluğun artırılması və insanların, bu rayonlarda yaşayan insanların həyat səviyyəsinin yaxşılaşdırılması üçün aparılır. Ona görə biz neftdən əldə olunan vəsaiti bu sahəyə qoyuruq ki, camaat daha da yaxşı dolansın, işləsin, pul qazansın, halal zəhmətlə dolansın. Biz yaxşı pul qazanmaq üçün imkanlar yaradırıq. Ona görə pambıqçılığın inkişafı Prezident kimi mənim üçün ilk növbədə sosial layihədir, ondan sonra iqtisadi layihədir, daha sonra isə valyuta gətirən layihədir."

Bu, dövlətin, dövlət başçısının öz vətəndaşına, sadə kənd adamına göstərdiyi qayğının bariz nümunəsidir. İllər keçdikcə insanlar bu qayğının, görülən işlərin, həyata keçirilən səmərəli tədbirlərin, islahatların uğurlu nəticələrini daha aydın, daha əyani şəkildə görə biləcəklər.

XALQA, DÖVLƏTƏ SƏDAQƏT NÜMUNƏSİ

Ölkə Prezidenti İlham Əliyevin 21 fevral 2017-ci il tarixli sərəncamı ilə özünün səmərəli fəaliyyəti, əvəzsiz xidmətləri ilə respublikamızın ictimai-siyasi həyatında mühüm rol oynayan, onu bütün dünyada tanıdıran Mehriban xanım Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti təyin edilib. Bu təyinat heç də təsadüfi deyil. Mehriban xanım Əliyevanın xalqımıza, dövlətimizə sədaqətli xidmətinin bəhrəsidir. Yüksək intellekti, zəngin təcrübəsi, hərtərəfli biliyi, bacarığı, qabiliyyəti, işgüzarlığı, xeyirxahlığı ilə hər yerdə yüksək dəyərləndirilən, ümumxalq sevgisi qazanan Mehriban Əliyeva yorulmaq bilmədən respublikamızın inkişafı naminə böyük işlər görür, mühüm tədbirlər həyata keçirir. Azərbaycanın birinci xanımı dünya dövlətlərinin nüfuzlu rəhbərləri tərəfindən həmişə ən ali hörmət və ehtiramla qarşılanır, yüksək mədəniyyəti, məhsuldar fəaliyyəti ilə hər kəsin nəzər-diqqətində sevilən simaya çevrilir.

Mehriban xanım Əliyevanın bütün həyatına, fəaliyyətinə, şəcərəsinə diqqət yetirəndə onun belə bir siyasi xadim kimi yetişməsinin tamamilə təbii olduğunu görürük. Mehriban Arif qızı Əliyeva 1964-cü il avqustun 26-da Bakı şəhərində ziyalı ailəsində anadan olub. 1982-ci ildə Bakı şəhəri 23 nömrəli orta məktəbi qızıl medalla bitirərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub, 1988-ci ildə İ.M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirib. 1988-1992-ci illərdə Moskvada akademik Krasnovun rəhbərliyi altında Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda işləyib. 2005-ci ildə "Eftanaziya və təbabətdə humanizm problemi" mövzusunda dissertasiya işi müdafiə edərək alimlik dərəcəsi alıb.

Mehriban xanım Əliyeva aktiv ictimai fəaliyyətə 1995-ci ildə hal-hazıra qədər rəhbərlik etdiyi Azərbaycan Mədəniyyət Fondunu yaratmaqla başlayıb. 1996-cı ildə Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədi ilə üç dildə (Azərbaycan, ingilis və rus dillərində) çap olunan "Azərbaycan-İrs" jurnalını təsis edib. 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilən Mehriban xanım həmin vəzifədə özünü gözəl təşkilatçı kimi nümayiş etdirib. Onun beynəlxalq aləmdə artmaqda olan nüfuzu Beynəlxalq Gimnastika Federasiyasının bədii gimnastika üzrə dünya kubokunun "A" kateqoriyalı mərhələsinin (2003), Dünya kubokunun (2004), 27-ci Dünya çempionatının (2005), 23-cü (2007), 25-ci (2009) və 30-cu (2014) Avropa çempionatlarının Azərbaycanda keçirilməsinə dair qərarın qəbul olunmasında həlledici rol oynayıb.

Mehriban xanım Əliyeva Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, onun milli dövlətçilik ideyalarının yeni nəsillərə aşılanması məqsədi ilə yaradılmış Heydər Əliyev Fondunun prezidentidir. 2004-cü ilin 10 mayında — ümummilli lider Heydər Əliyevin doğum günündə təsis edilmiş Heydər Əliyev Fondunun başlıca məqsədi milli-mənəvi dəyərlərin qorunması, Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək göstərmək, əhalinin rifahının, həyat səviyyəsinin yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirləri, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələri dəstəkləmək, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılmasına nail olmaqdır. Çoxillik fəaliyyəti dövründə Heydər Əliyev Fondu müxtəlif sahələri əhatə edən bir çox mühüm layihələri reallaşdırmağa, dünyanın nüfuzlu təşkilatları ilə əməkdaşlıq etməyə, möhtəşəm beynəlxalq konfrans və festivallar keçirməyə müvəffəq olub. Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır.

Mehriban Əliyevanın fəaliyyətində idmanın inkişafına da xüsusi önəm verilir. 2004-cü il 28 dekabrda Mehriban Əliyeva Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilib. 2012-ci il 8 dekabrda Avropa Olimpiya Komitəsi Baş Assambleyası 2015-ci ildə I Avropa Oyunlarının Bakıda keçirilməsi haqqında qərar qəbul edib. Birinci Avropa Oyunlarını yüksək səviyyədə keçirmək məqsədi ilə 2013-cü il yanvarın 17-də Təşkilat Komitəsi yaradılıb və onun sədri Mehriban Əliyeva təyin olunub. 21 yanvar 2016-cı ildə, "Bakı-2015" birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevaya Avropada idmanın inkişafında göstərdiyi xüsusi xidmətlərə görə Avropa Olimpiya Komitələrinin İcraiyyə Komitəsinin qərarı ilə Avropa Olimpiya Komitələrinin ən yüksək mükafatı olan Ali Orden təqdim edilib. IV İslam Həmrəyliyi Oyunlarındakı böyük uğurlarımızda da Təşkilat Komitəsinin sədri kimi onun xidmətləri əvəzsizdir.

2004-cü ildən Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü olan Mehriban xanım Əliyeva 2013-cü ildən partiyanın sədr müavinidir. 2005 və 2010-cu illərdə Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçkilərdə namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən 14 saylı Xəzər ikinci seçki dairəsidən irəli sürülmüş Mehriban Əliyeva böyük səs çoxluğu ilə deputat seçilib. O, Milli Məclisin deputatı kimi fəaliyyətində əsl peşəkarlıq, siyasi yetkinlik nümunəsi göstərmişdir.

Mehriban Əliyevanın Milli Məclisin deputatı kimi fəaliyyətində yaddaqalan məqamlardan biri onun ədalət, humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq genişmiqyaslı amnistiya aktının qəbul edilməsi təşəbbüsü ilə çıxış etməsidir. Azərbaycan parlamentarizmi tarixində ilk dəfə olaraq Milli Məclisin deputatı tərəfindən irəli sürülmüş və geniş ictimai dəstək almış bu amnistiya aktı böyük mənəvi-əxlaqi və siyasi məzmun daşımışdır. Mehriban xanım bu nəcib təşəbbüsü ənənəyə çevirərək 2009 və 2013-cü illərdə də eyni müraciətlə çıxış etmiş və nəticədə 2009-cu ildə 9564, 2013-cü ildə isə təqribən 9000 nəfər azadlığa buraxılmışdır.

Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə olaraq "birinci xanım" statusunu məhz Mehriban Əliyeva formalaşdıraraq cəmiyyətin həyatına birinci xanım ənənəsini gətirmişdir.Adətən hər bir ölkənin birinci xanımı öz ölkəsində elmə, mədəniyyətə və təhsilə diqqət yetirir. Mehriban xanımın diqqətindən kənarda isə heç bir sahə qalmır, o, bütün bilik və bacarığını müxtəlif humanitar təşəbbüslərin reallaşmasına sərf edir. Mehriban xanımı ölkə başçısı ilə ictimaiyyət arasında ən mahir əlaqələndirici hesab etmək olar. Onun irəli sürdüyü bir çox təşəbbüslər dövlət və vətəndaş birliyinin təmin edilməsində mühüm rol oynayır.

Mehriban Əliyevanın humanizm, mərhəmət və nciblik kimi ali mənəvi keyfiyyətlərindən irəli gələn əzmkar və çoxşaxəli fəaliyyətinin təməlində məhz millətə layiqli xidmət məramı dayanır. Mehriban Əliyeva ictimai düşüncədə "bir çox sosial problemləri yalnız dövlət həll etməlidir" kimi stereotipi dəyişdirməyə cəhd etmiş və cəmiyyətin bütün təbəqələrinin kənar müşahidəçi mövqeyindən konkret fəaliyyətə keçməsinə nail olmuşdur.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə görə bir çox beynəlxalq təşkilatlar, dövlətlər tərəfindən yüksək mükafatlara layiq görülüb. Mehriban Əliyeva UNESKO və İSESKO-nun xoşməramlı səfiridir.

Heydər Əliyev Fondunun prezidenti vəzifəsini icra edərkən Mehriban Əliyevanın gördüyü dövlət əhəmiyyətli işlər onun geniş və şaxəli fəaliyyətinin bir hissəsi kimi diqqəti cəlb etmişdir. Tikilən yeni-yeni binalar, əsaslı surətdə yüksək zövqlə təmir və bərpa olunan teatrlar, muzeylər, kitabxanalar, salınan gözəl parklar, geniş meydanlar, təməli qoyulan xeyli sayda xəstəxana, diaqnostika mərkəzi, məktəb, uşaq bağçası və nə qədər obyektlər buna əyani sübutdur. Həyata keçirilən respublika əhəmiyyətli, dünya miqyaslı geniş layihələr və bir çox vacib tədbirlər də buna misaldır. Belə geniş ictimai-siyasi fəaliyyətin nəticəsidir ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması xalq tərəfindən sevinclə qarşılanıb, dünyaynın nüfuzlu ictimai xadimləri bu təyinatı dəstəkləyiblər.

Xalqa, dövlətə həmişə sədaqətlə xidmət göstərən, respublikamızın çiçəklənməsi, vətəndaşlarımızın xoşbəxt həyatı yolunda fədakarlıqla çalışan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya bu mühüm vəzifəsinin icrasında bundan sonra da böyük uğurlar arzulayır, geniş ictimai-siyasi fəaliyyətində və şəxsi həyatında yeni-yeni nailiyyətlər diləyirik.

Zaur ƏSGƏROV,
Mirqurbanlı kənd tam orta məktəbinin müəllimi

Pambıq yığımı başlandı
MƏHSULU TEZ VƏ İTKİSİZ TOPLAYAQ

İnsan o vaxt sevinir, fərəh hissi keçirir ki, zəhməti hədər getmir, bəhrəsini verir, istədiyini görə bilir. Bu gün o xoş hisslərin, duyğuların təsiri altında olan kənd adamlarının da ürəkdən sevinməyə, fərəh hissi keçirməyə haqları var. Ona görə ki, onlar istədiklərini görə biliblər, "ağ qızıl" tarlalarında bol məhsul yetişdirməyə nail olublar. Əlbəttə ki, böyük zəhmət bahasına, gərgin, fədakar əmək hesabına. İllərlə, on illərlə əkilməyən torpaqları ram etmək o qədər də asan deyildi. Amma hünərvər insanların iradəsi buna qalib gəldi.

Ötən il 1541 hektar sahədə pambıq əkən zəhmət adamları bu il bu rəqəmi 11111 hektara çatdıranda onları hansı çətinliklərin gözlədiklərini yaxşı bilirdilər. Ancaq heç kim qorxub çəkinmədi. Hamı işə ürəklə girişdi. Bol məhsul uğrunda aylarla gərgin mübarizə getdi. Rayon rəhbərliyinin yüksək təşkilatçılığı sayəsində səfərbər olan qüvvələr hədəfi dəqiq, düzgün müəyyənləşdirdiyindən nəticə də sevindirici oldu. Ağ örpəyə bürünmüş

tarlalar bol məhsuldan xəbər verir. İndi əsas məsələ yığımı vaxtında, yaxşı təşkil etmək, bütün qüvvələri bu istiqamətə yönəltməkdir. Məhsul toplanışında fəal iştirak etməklə insanlar yaxşı da qazanc əldə edəcək, ailə büdcələrini xeyli dərəcədə zənginləşdirəcəklər. Gərək hamı bunu dərindən dərk etsin, yaxşı anlasın. Ona görə hər kəs yaranmış bu əlverişli imkandan maksimum yararlanmağa çalışmalıdır.

Bu günlər sözün əsl mənasında hünər vaxtıdır. İndi hər gün, hər saat yox, hər dəqiqə çox qiymətlidir. Bu hər birimizdən son dərəcə məsuliyyətli olmağı tələb edir. Təbiətin mərhəmətinə yox, öz gücümüzə, birliyimizə arxalanaq.

Əziz neftçalalılar, əziz kənd əməkçiləri! Rayonumuzun adı, şərəfi uğrunda gedən bu mübarizədə fəal olun, köməyinizi əsirgəməyin. Unutmayın ki, doğma Neftçalanın adı, şərəfi bizim şərəfimizdir. Bu şərəfə layiq olun. Çalışın sabahkı ümumi qələbədə hər birinizin layiqli zəhmət payınız olsun.

Görülən işlər, keçirilən iməciliklər hər yanda səliqə-sahman yaradır

Yaşayış yerləri, yol kənarları, küçə və meydanlar o vaxt gözəl, səliqə-sahmanlı olur ki, həmin yerlərdə müntəzəm olaraq təmizlik, abadlıq işləri görülsün, kütləvi iməciliklər keçirilsin. Rayonumuzun sakinləri son illər belə tədbirlərin keçirilməsinə, ətrafda səliqə-sahman yaradılmasına adət etmişlər. İnsanları

narahat edən natəmizliklərin, xoşagəlməz halların, mənzərələrin aradan qaldırılması məhz görülən belə ardıcıl tədbirlərin, kütləvi iməciliklərin təşkili, rayonun daxili imkanlarından səmərəli istifadə olunması nəticəsində mümkün olmuşdur.

Sevindirici haldır ki, illərdən bəri yaradılmış bu gözəl, işgüzar ənənələr bu gün də davam edir. Adamlar bu istiqamətdə gedən işlərdən bu gün də sonsuz fərəh hissi keçirirlər. Son vaxtlar, son günlər bu məsələlərin yenidən önə çəkilməsi, Neftçala şəhərində, Neftçala-Salyan asfalt yolunun kənarlarında, ayrı-ayrı yaşayış məntəqələrində və digər yerlərdə genişmiqyaslı təmizlik işlərinin aparılması, kütləvi ümumrayon iməciliklərinin keçirilməsi, hər tərəfdə səliqə-

sahman yaradılması insanlardakı xoş ovqatı daha da artırır. İndi hara baxsan orada bir qaynarlıq görərsən, qızğın işin şahidi olarsan. Böyük həvəslə, sevgi ilə çalışan insanlar rayonumuzun, Neftçala şəhərinin, qonşu rayonlardan buraya gələn yolların abadlığı, səliqə-sahmanı üçün əllərindən gələni əsirgəmirlər. Heç kim də yoruldum demir. Hamı doğma Neftçalanı öz evi, eşiyi sandığından nəzərdə tutulan işlərin uğurla başa çatması üçün səyini durmadan artırır.

Dünya şöhrətli idmançılarımız

MƏQSƏDİ OLİMPİYA OYUNLARININ QIZIL MEDALINA SAHİB OLMAQDIR

İndi ölkəmizdə böyük idman uğurlarına imza atmaq heç də təəccüblü deyil. Son illər belə parlaq qələbələrin çox şahidi oluruq. Amma belə böyük nailiyyət hər idmançıya da nəsib olmur. Yalnız yaradılmış əlverişli şəraitdən bacarıqla istifadə edərək peşəkarlaşanlar buna nail olurlar. Peşəkarlıq, ustalıq isə birdən-birə yaranmır. Gərək bunun üçün illərlə ağır zəhmətə qatlaşasan, ardıcıl məşq edəsən, sözün əsl mənasında usta olasan. Necə ki, həmyerlimiz, Xolqarabucaq kəndində doğulub boya-başa çatmış Rövşən İlyas oğlu Səfərov oldu.

Rövşən dünyaya gözünü 1988-ci ildə açmışdı. O da yaşıdları kimi qayğıdan, kədərdən uzaq şirin uşaqlıq dünyasını yaşamışdı. Arzuları, istəkləri aşıb daşsa da, idman onu daha çox çəkirdi özünə sarı. O vaxtlar kənddə idmanın ağır atletika növü geniş yayılsa da, balaca Rövşən cü-doya daha çox həvəs göstərirdi. İdmançıların oyununa maraqla tamaşa edirdi. Amma kənddə peşəkar məşqçi olmadığından doğmaları məcbur olub onu Sumqayıta aparmalı oldular.

Kənddən gəlmiş sakit təbiətli uşağın qaynar şəhər həyatına öyrəşməsi asan olmasa da, idmana olan həvəsi, doğmalarının qayğısı, təmasda olduğu insanların istiqanlılığı tezliklə ona qəribliyi unutdurdu. O günləri xatırlayan Rövşən Səfərov belə deyir:

— İlk məşqçim Sabir Adıgözəlov məni çox mehriban qarşıladı. Ürək-dirək verdi, yaxşı idmançı olacağımı bildirdi. Bu məni çox sevindirsə də, həyəcanım ötmürdü. Günlər keçdikcə hər şey öz axarına düşürdü. Məşqlərimə müntəzəm davam edir, cü-donun incəliklərinə yiyələnirdim. Özümə inamım xeyli dərəcədə artmışdı, məşqçimə çox isinişmişdim. İllər beləcə keçir, hər şey yaxşılağa doğru dəyişirdi. Ancaq eşitdiyim bəd xəbər bütün varlığımı sarsıtdı, necə deyərlər, qollarım boşaldı. Sevimli məşqçim Sabir müəllimin qəfil ölümündən sonra bir müddət özümə gələ bilmədim. Sanki boşluğa düşmüşdüm, həyat məni sıxırdı. Amma dünya yaxşılardan xali deyilmiş. O çətin, mənəvi cəhətdən sarsıldığım günlərdə yeni məşqçim Fərid Ağakişiyevin mehribanlığı, qayğıkeşliyi olmasaydı, bəlkə də mən idmanla birdəfəlik vidalaşmalı olacaqdım. Ona görə Fərid müəllimə təkcə peşəkarlığıma, mənə idmanın bu çətin növünün incəliklərini öyrətdiyinə görə yox, həm də qayğıkeşliyinə, mənə həyan olduğuna görə minnətdaram.

Artıq psixoloji cəhətdən möhkəmlənmiş, peşəkarlaşmış Rövşən üçün yollar açıq idi. Şəhər, respublika birinciliklərindəki uğurlu çıxışları, qazandığı qələbələr onu daha böyük zəfərlərə səsləyirdi.

İlk layiqli uğura 2009-cu ildə imza atdı. Böyük həyəcanla daxil olduğu Macarıstandan qələbə ilə qayıtdı Rövşən Səfərov. Cü-do üzrə Avropa çempionatının qızıl medalına layiq görülən həmyerlimizin şərəfinə himnimiz səsləndi, üçrəngli bayrağımız ən yüksək zirvəyə qalxanda özünü xoşbəxtlərin xoşbəxti sandı Rövşən. Qanadı olsaydı uçardı. Niyə də uçmayaydı?! İllərdən bəri o belə möhtəşəm qələbə üçün çalışmırdımı, bir-birindən çətin məşqlərin əzablarına bunun üçün qatlaşmırdımı?! İndi də sevinməyə haqqı vardı. Özü də ürəkdən sevinməyə, sonsuz qürur hissi keçirməyə.

Sonrakı illər də bir-birindən uğurlu gəldi. Rövşən Səfərov 2010 və 2014-cü illərdə keçirilən dünya çempionatlarında da öz sözünü deməyi bacardı. Dünyanın sayılıb seçilən idmançılarının iştirak etdiyi bu çətin sınaqlardan alnıaçıq-üzüağ çıxmaq o qədər də asan deyildi. Amma Rövşən bunu bacardı. Bu dəfə də respublikamıza layiqli qələbələrlə qayıtdı, sevimli məşqçisini, böyük həyəcanla, intizarla yolunu gözləyən valideynlərini, doğmalarını ürəkdən sevindirə bildi.

Olimpiya Oyunları idman yarışlarının zirvəsi, tacıdır desək, yəqin ki, yanılmarıq. İdmançı ən böyük, ən layiqli qələbəni məhz bu oyunlarda qazandığından həmin oyunlara həmişə böyük məsuliyyətlə hazırlaşır. 2016-cı ildə Braziliyanın Rio-de Janeyro şəhərində keçirilən XXXI Yay Olimpiya Oyunları da beləcə qaldı özünə güvənən, özünə inanan idmançıların yaddaşında. Bu çətin yarışlarda Rövşən Səfərov da iştirak edirdi. Böyük qələbənin sevincini yaşamaq onun üçün də əlçatmaz deyildi. Dünya və Avropa birinciliklərində layiqli nəticələr əldə edən Rövşən Səfərov bu yarışlara da çox ciddi hazırlaşmışdı. Bürünc medala layiq görülməsi də çəkdiyi zəhmətinin, peşəkarlığının bəhrəsi idi. Oyunların yekunlarına həsr olunmuş təntənəli mərasimdə Prezident İlham Əliyevin ona təqdim etdiyi "Tərəqqi" medalı Rövşən üçün ən qiymətli mükafat oldu. Yəqin ki, o bu xoş dəqiqələri heç vaxt unutmayacaq, həmişə xatırlayacaq.



Respublika Cü-do Federasiyasının prezidenti Rövnəq Abdullayevin pul mükafatı və qiymətli hədiyyəsi də onun üçün unudulmazdır.

İllərlə çəkdiyi zəhmət hədər getməmişdi. Qələbə dalınca qələbə gəlirdi. Sevinc sevincə qovuşurdu. Bir il sonra 2017-ci ildə bir bürünc medal da Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunlarından gəldi. Yenə məşqçi Fərid Ağakişiyev onun əlini hərarətlə sıxdı, doğmaları, dostları Rövşəni bağırlarına basdılar, daha böyük uğurlar, nailiyyətlər arzuladılar. Bütün bunları görmək, eşitmək, yaşamaq əsl xoşbəxtlikdir. O bu xoşbəxtliyi heç də asanlıqla qazanmayıb. 2014-cü ildə Azərbaycanın idman ustası adına layiq görülən həmyerlimiz 2017-ci ildən respublikanın Əməkdar idman ustasıdır. Azərbaycan Neft Akademiyasını bitirən R.Səfərov indi də təhsilini Bədən Tərbiyəsi Akademiyasında davam etdirir. 2009-cu ildən "Neftçi" idman klubunun üzvüdür.

İşinin çox, məşqlərinin gərgin olmasına baxmayaraq Rövşən Səfərov doğulduğu kəndini də unutmur, vaxtaşırı olaraq doğma Xolqarabucağa gəlir, əzizləri, dostları ilə görüşür, sevincini onlarla yarı bolür. Bu günlərdə yenə qonaq gəlmişdi elinə, obasına. Fürsətdən istifadə edərək biz də görüşdük onunla. Rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyevin onu necə səmimiyyətlə qəbul etməsindən, qayğıları ilə maraqlanmasından razılıqla danışdı. Neftçalada qurulanlar, yaradılanlar onu çox sevindirmişdi. Axşamüstü Bulvarda oturub çay içmələri, Kürün təmiz, saf havası ilə nəfəs almaları, Bayraq Meydanını, əzəmətlə zirvədə dalğalanan üçrəngli bayrağımızı seyr etmələri və göz oxşayan digər yerlər onda xoş duyğular oyatmışdı.

Rövşən Səfərov hələ gəncdir, enerjilidir, ürəyində təpər, qollarında güc çoxdur. Onu qarşıda daha çətin mübarizələr, həyəcanlı dəqiqələr gözləyir. Ən böyük arzusu, hədəfi isə Olimpiya oyunlarının qızıl medalına sahib olmaqdır. Sənə bu yolda uğur arzulayırıq, Rövşən! Sevinc, fərəh dolu o günü biz də ümidlə gözləyirik.

H.ƏSƏDOV

Dövlət başçısına minnətdarlıq

XOŞBƏXTİK Kİ, SABİT ÖLKƏDƏ YAŞAYIRIQ

Artıq neçə ildir ki, dünya özünün bir-birindən narahat, bir-birindən ağrılı günlərini yaşayır. İnternet saytlarında, sosial şəbəkələrdə, televiziya kanallarında sanki hər gün bəd xəbərlər eşitməyə öyrəşmişik: filan yerdə anomal soyuqlar həyatı iflic halına salıb, filan ölkədə meşə yanğınları tüğyan edir, başqa bir yerdə zəlzələ nəticəsində dağıntılar olub, digərində çaylar daşıb, evlər su altında qalıb... Bütün bunlar təbii fəlakətlərdir, ən dəhşətlisi isə insanların törətdikləri faciələrdir: müharibələr, terrorlar, partlayışlar, həyatını itirmiş minlərlə mühacir, dövlət çevrilişləri, siyasi alver qurbanları, bir sözlə, şərin, eybəcərliyin, antihumanizmin ağla gələn və gəlməyən hər cür təzahürləri...

Dünyanın belə bir acınacaqlı mənzərəsinin fonunda adam Azərbaycanda yaşadığı üçün Allaha şükür edir. Dünyanın bir çox, hətta bizə dost olan ölkələrində belə səhər evdən çıxıb axşam evə salamat qayıtmaq az qala qəhrəmanlıqdır. Nə yaxşı ki, bizim ölkəmiz belə "qabaqcıl", "inkişaf etmiş", özünü dünyaya "demokratiya" beşiyi kimi tanıdan ölkələrdən deyil. Bu gün azad Azərbaycan vətəndaşı tikir, yaradır, qurur, əkir, becərir, oğul evləndirir, qız köçürdür, övlad oxutdurur. Müharibə şəraitində yaşamasına baxmayaraq, gələcəyə nikbin nəzərlərlə baxır. Bütün bunlar isə çoxmillətli ölkəmizdə olan siyasi sabitliyin, əmin-amanlığın, milli və vətəndaş həmrəyliyinin nəticəsidir. Bu kursu bizim üçün ulu öndərimiz Heydər Əliyev müəyyən etmişdir. Bu müdrik siyasi kursun layiqli davamçısı isə sevimli Prezidentimiz cənab İlham Əliyevdir. Möhtərəm İlham Əliyevin rəhbərliyi altında həyatımızın hər bir ili tarixə yeni-yeni işıqlı səhifələr kimi yazılır. Bu gün üçün, bu sakit və sabit axarlı həyat üçün dövlət başçımıza minnətdar olmalıyıq.

Tükəzban HƏSƏNOVA,
Xıllı qəsəbə sakini, müəllim

YOLLARIMIZDA VƏZİYYƏT NECƏDİR

Müsahibimiz 50 nömrəli "Yol İstismar" MMC-nin sədri Füzuli Babayevdir

— Füzuli müəllim, idarənizin həyətyanı sahəsindəki, inzibati binadakı səliqə-sahman ilk nəzərdən diqqəti cəlb edir. Çoxlu ağac əkmisiniz, yaşıllığa qayğı göstərirsiniz. Bütün bunlar adamda xoş təəssürat yaradır. Buna görə sağ olun.

— Dəyərləndirdiyinizə görə siz də sağ olun. Bütün bunlar işimizin, fəaliyyətimizin bir sahəsidir. Onları görməyəndə narahat oluruq. Tez-tez keçirdiyimiz iməciliklər də bununla bağlıdır.

— Xidməti vəzifəniz barədə nə deyərdiniz? İşləriniz necə gedir?

— Yol iqtisadiyyatın canıdır desək, yəqin ki, yanılmarıq. Bütün uğurların əsas hissəsi məhz yoldan başlayır. Yaxşı yol eyni zamanda rahatlıqdır, mədəniyyətdir. Buna görə çalışırıq ki, üzərimizə düşən vəzifənin öhdəsindən layiqincə gələk, verilən tapşırıqları vaxtında yerinə yetirək.

— Xidmət göstərdiyiniz yolların ümumi uzunluğu nə qədərdir?

— 251 kilometr. Onlardan 40 kilometri respublika əhəmiyyətli Salyan-Neftçala asfalt yoludur. Qalan 211 kilometri isə yerli əhəmiyyətli yollardır. Neftçala-Xolqaraqaşlı-Şorsulu, Bankə-Beştalı, 1 və 2 nömrəli Mayak kənd yolları bu kateqoriyaya daxildir. İlin əvvəlindən bəri bu yollarda 368 min manatlıq cari təmir işləri görmüşük. Yolların üzərindəki maneələrin aradan qaldırılması, yol nişanlarının qurulması, yolların kənarlarındakı kol-kosların təmizlənməsi, qış aylarında buzlaşmaya qarşı tədbirlərin görülməsi və digər bu kimi işlər məhz ayrılmış həmin vəsaitin hesabına həyata keçirilir.

— Nəyisə qurmaqla, yaratmaqla iş bitmir. Gərək onları qorumağı da bacarasan. Şorsulu-Xəzər yolu da məhz qoruya bilmədiyimizə görə xeyli dərəcədə zədələndi. İlk gündən yolda hərəkət edən ağır tonlu maşınların qarşısı alınsaydı, yəqin ki, vəziyyət bu şəkli almazdı. Olan olub, necə deyərlər, sonrakı peşimançılıq fayda vermir. Ancaq vəziyyət belə də qala bilməz, yolun təmiri nəzərdə tutulurmu?

— 39 kilometr uzunluğunda olan bu yolun dağılmış hissələrini cari təmir hesabına aradan qaldırmaq çətindir. Bunu nəzərə alaraq "Azəravtoyol" ASC qarşısında məsələ qaldırmışıq. Vəsait ayrılandan sonra yolun təmirinə başlanacaq, dağılmış yerlər bərpa ediləcəkdir.

— Bəs Neftçaladan Xolqaraqaşlı kəndinə istiqamətlənən yol barədə nə deyərdiniz? Bu, rayonu Xol zonası ilə birləşdirən ən qısa yoldur.

— Doğru deyirsiniz. Xol rayonun ən böyük yaşayış ərazisidir. Burada çoxlu sayda insan yaşayır. Bir çox hallarda bu insanlar müəyyən bir işdən ötrü rayon mərkəzinə Salyandan keçib gəlməli olurlar. Bu təkcə vaxt itkisi deyil, həm də əlavə vəsaitdir. Netçala-Xolqaraqaşlı-Şorsulu yolunun qaydaya salınması rayonun iqtisadiyyatına, Neftçala şəhərindəki bazarların kənd təsərrüfatı məhsulları ilə zənginləşməsinə də öz müsbət təsirini göstərər. Bütün bunları nəzərə alaraq rayon rəhbərliyi yolun əsaslı təmirini daim diqqətdə saxlayıb, əlaqədar təşkilatlar qarşısında dəfələrlə məsələ qaldırıb. Vəziyyətlə əlaqədar "Azəravtoyol" ASC də lazımi tədbirlər görür. Yəqin ki, yaxın vaxtlarda bu məsələ həllini tapacaq, yolun tamamilə yenidən qurulması həyata keçiriləcəkdir.

— Rayonun Şirvan ərazisindəki insanların uzun illərdən bəri həsrətlə gözəldikləri arzu isə artıq reallaşmaq üzrədir. Cəngən-Beştalı-Bankə-Şirvanlı yolunda qızğın iş gedir.

— Bunun üçün dövlət başçısı cənab İlham Əliyev sərəncam imzalayaraq yolun əsaslı təmiri üçün vəsait ayırmışdı. İndi yolun tikintisi sürətlə davam etdirilir. "Azəravtoyol" ASC-nin sifarişi ilə görülən bu iş gündən-günə sürətlənməkdədir. Sevinirik ki, belə böyük layihənin icrasında bizim maşın və mexanizmlərimiz, fəhlə və mütəxəssislərimiz də yaxından iştirak edirlər. Tikinti işləri yaxın vaxtlarda tamamlanacaq, tamamilə yenidən qurulan yol ərazidəki kəndlərin sakinlərinin istifadəsinə veriləcəkdir.

— Neftçala-Salyan yolu da "qocalıb", onu nə vaxt cavanlaşdırmaq fikrindəsiniz?

— Bu yol sonuncu dəfə ötən əsrin 80-ci illərində əsaslı təmir olunub. O vaxtdan indiyə kimi intensiv istismar olunsa da, bu proses baş verməyib. Yalnız cari təmirlərlə kifayətlənilib. Hazırda P-46 Salyan-Neftçala asfalt yolunun yenidən qurulması ilə əlaqədar bütün layihə-smeta sənədləri tam hazırlanaraq Nazirlər Kabinetinə təqdim olunmuşdur. Nazirlər Kabinetinin müsbət qərarından sonra bu yol da əsaslı təmir olunaraq sizin dediyiniz kimi cavanlaşacaqdır.

— 39 saylı yol istismar idarəsi ilə 50 nömrəli "Yol istismar" MMC arasında nə fərq var?

— Hazırda müəssisəmiz əvvəlkinə nisbətən daha geniş imkanlara malikdir. Sənədləşmə işləri çox asanlaşıb, vəsait ayrılmaları artıb, maşın və mexanizmlərin sayı çoxalıb. Son vaxtlar "Volva" markalı ekskavatorun, kiçik həcmli vərdənənin, yol frezinin, asfalt dağıdan mexanizmin alınması işimizi sürətləndirib. Yaxın vaxtlarda yeni yük maşınları, avtoqreyder və digər vacib mexanizmlər də alacağıq. Ən böyük uğurumuz isə "Azəravtoyol" ASC rəhbərliyinin sərəncamı ilə bizə verilən Almaniya istehsallı "Teltamat" markalı yeni asfalt zavodudur. Saatda gücü 100 ton olan zavodun asfaltı ilə özümüzün xidmət etdiyimiz yollarla yanaşı, digər sifarişləri də vaxtında və keyfiyyətlə yerinə yetirə bilirik. Bundan sonra rayon ərazisindəki bütün yolları özümüz təmir edəcəyik. Halbuki əvvəlki F-1 markalı asfaltqarışdıran qurğu ilə çox məhdud miqdarda iş görmək olurdu. Hazırda Cəngən-Şirvanlı yolunun çəkilməsindəki fəal iştirakımız da yeni asfalt zavodunun fəaliyyəti ilə bağlıdır.

— Bütün uğurların arxasında kollektivin, onun qabaqcıl üzvlərinin böyük zəhməti durur. Yəqin sizdə də belələri az deyil?

— Çoxdur. Söz düşəndə iş icraçısı Aləddin Abbasovun, yol ustası Zülfəli Həsənovun, ekskavatorçu Ərəstun Tahirovun, avtoqreyderçi Mais Əmirovun, asfaltbişirən operator Coşqun Məmmədovun, sürücü Cavid Quliyevin, fəhlələr Hikmət Fərzəliyevin, Əli Quliyevin, İlham İsmayılovun və digərlərinin adlarını birinci çəkirik. Onlar bu hörməti işgüzarlıqları, peşəkarlıqları ilə qazanıblar. Bütövlükdə götürəndə isə uğurlarımızda hərənin öz payı var.

— Suallarımıza geniş aydınlıq gətirdiyinizə görə sizə təşəkkür edirik. Biz eyni zamanda sizi rayon mətbuatının, "Gündoğar"ın yaxın dostu kimi tanıyırıq. Qəzetimizə abunə yazılışındakı köməyinizə görə də sağ olun.

— Siz də sağ olun. Qəzetinizin oxucuları, rayon sakinlərilə əlaqə yaratdığınıza görə biz də sizə öz səmimi təşəkkürümüzü bildiririk.

Müsahibəni apardı:
Habil ƏSƏDOV

AVTOMOBİL ZAVODUNUN TİKİNTİSİNDƏ

Salyan-Neftçala magistralı ilə gəlib rayonumuzun mərkəzinə daxil olarkən yolun sağında təzə, abad bir şəhərcik diqqəti çəkir. Geniş giriş darvazasının üstündə uzaqdan müəssisənin adı da oxunur: "Neftçala Sənaye Məhəlləsi". On hektarlıq ərazisi olan bu müəssisənin arxasında daha beş hektarlıq bir ərazidə qızğın iş gedir. Bura isə tikilməkdə olan Neftçala Avtomobil İstehsalı Zavodudur. Burada gedən işlərin sürətinə, intensivliyinə baxanda adam doğrudan da heyrətlənir.

Son illər rayonumuzda gedən genişmiqyaslı tikinti və abadlıq işləri hamımızın gözü qarşısında görülüb. Netçala Sənaye Məhəlləsinin salınması və nəhayət, Avtomobil İstehsalı Zavodunun operativ şəkildə tikintisi də bu böyük quruculuq işlərinin davamıdır.

Tikilməkdə olan zavodun ərazisinə daxil olmaq o qədər də çətin olmadı. İlkin olaraq sahə rəisi Mehdi Hacıyevi soruşduq. Qarşımızda cavan, mədəni bir gənc gördük. Öyrəndik ki, bu gənc oğlan iş təcrübəsinə metro tikintisində başlayıb, bir az da təəccübləndik. Mehdi müəllimin sözlərindən aydın oldu ki, zavodun inşasına 2016-cı ilin dekabr ayından başlanılıb. İşlər "Azevrokar" MMC və İran İslam Respublikasının "İran khodro" Şirkətinin birgə layihəsi əsasında aparılır. Zavodun ərazisi beş hektardır, tikintidə 100 nəfər adam işləyir. Paralel olaraq bütün istiqamətlərdə qızğın iş gedir: yol, abadlıq, kommunikasiya, elektrik, zavodun köməkçi obyektləri... Əsas sex isə avtomobil yığımı sexidir, bu sex demək olar ki, zavodun ürəyidir. Zavod sözügedən şirkətlərin vəsaiti hesabına inşa olunur. Tikintidə çalışanların çoxu öz həmyerlilərimiz, neftçalalılardır.

Tikinti materiallarının haradan alınması ilə maraqlandıq. Mehdi müəllim dedi ki, inşaatda istifadə olunan metal hissələr xaricdən gətirilir, digər tikinti materialları isə öz ölkəmizin, yerli istehsalımızın məhsuludur. Bir də diqqətimizi çəkən o oldu ki, burada təkcə sahə rəisi gənc deyil, yüz nəfərlik kollektivin hamısı gənclərdən ibarətdir, hamı da vahid iş formasında, başlarında təhlükəsizlik dəbilqələri. Boş dayanan bir nəfər də görmək mümkün deyil. Bax, əsl əmək çoşqusu, ruh yüksəkliyi buna deyərlər!

Sahə rəisi dedi ki, bizdə tənbəl adam yoxdur, mühəndislərdən Azad Alıyev, Şirin Nuriyev, Zakir Cəfərov, fəhlələrdən Rövşən Süleymanov, Cavad Əkbərov, Səxavət Məmmədov, İsabala Yusifov, İsa Əhmədov və digərləri nümunəvi işçilərdir. Zavodun tikintisi bu ilin dördüncü rübünün əvvəlində başa çatacaqdır. Bütün bunları görəndə və eşidəndə adam başqa söz tapa bilmir: "Uğur olsun, halaldır sizə, cavanlar!"

Zabil PƏRVİZ

Kəsilən qurbanlarınız qəbul olunsun

Humanizm və bəşəri idealları ilə dünya sivilizasiyasının möhtəşəmliyini özündə əks etdirən İslam dini xalqımızın dünyagörüşünün formalaşmasında, milli-mənəvi inkişafımızda çox mühüm rol oynamışdır. Mütərəqqi islami dəyərlərin, ənənələrin ölkəmizdə daim uca tutulması da bununla bağlıdır. Bu böyük dəyərlərin içərisində mübarək Qurban bayramının öz yeri var. İnsanları daim mərhəmətə, qardaşlığa çağıran bu müqəddəs bayram bütün islam aləmində olduğu kimi ölkəmizdə də həmişə böyük sevgi ilə, məhəbbətlə qeyd edilir. Allah yolunda qurbanlar kəsən insanlar min illərin müqəddəs ənənələrinə sadiqliklərini bu yolla nümayiş etdirirlər.

Sentyabrın ilk günlərinə təsadüf edən bu ilki Qurban bayramı da beləcə böyük sevgi ilə qeyd edildi ölkəmizdə. Müqəddəs ənənələrə böyük ehtiramla, sevgi ilə yanaşan rayonumuzun sakinləri də çoxlu sayda qurbanlar kəsdilər, böyük Yaradandan öz diləklərini dilədilər. Respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ölməz ruhu ehtiramla yad olundu.

Allah kəsilən qurbanlarınızı və dualarınızı qəbul etsin.

5,5 MİLYONDAN ARTIQ NƏRƏ CİNSLİ BALIQ KÖRPƏSİ

2002-ci ilin yayında Xıllı qəsəbəsinin yaxınlığında, Kür çayının sahilində tikinti materialları töküləndə hamı maraqla tamaşa edirdi bu mənzərəyə. Sonradan məlum oldu ki, burada balıqartırma zavodu tikəcəklər. Çoxları bunu əvvəlcə adi iş kimi qarşıladı, qeyri-adi bir şey görmədi. Amma tikinti başa çatdıqdan sonra hamı bu müəssisənin gözəlliyinə və əhəmiyyətinə heyran qaldı. Açılışında möhtərəm Prezidentimiz İlham Əliyev şəxsən özü iştirak etdi, zavodun ekoloji tarazlığın saxlanılmasında nə qədər gərəkli olduğunu xüsusilə diqqətə çatdırdı.

Xıllı Nərə Balıqartırma Zavodu göründüyü qədər də sadə müəssisə deyil. Burada inkubasiya sexi, yem sexi, dairəvi hovuzlar sexi, yum sexi, yardımçı hovuzlar, enerji sahəsi, qaraj və s. mövcuddur. Həyət-baca yaşıllıq içindədir, burada ciddi səliqə-sahman və abadlıq hökm sürür.

Burada çalışan insanlarla elə iş başında görüşdük. İnkubasiya sexinin rəisi Məhəmməd Səfərov bildirdi ki, mövsümi tədbiri bu yaxınlarda başa vurmuşuq, Kür çayının Xəzər dənizinə tökülən hissəsinə beş milyon yarım nərəcinsli körpə balıqlar buraxılmışdır. Bu proses iyul ayının 3-dən 20-nə qədər davam etmişdir. Bir də bu proses gələn mövsümdə icra olunacaqdır.

Məhəmməd Səfərov rəhbərlik etdiyi inkubasiya sexinin işindən həvəslə söhbət açdı və bildirdi ki, sexdə Yaşar Bədəlov, İlham Məcidov, Zəminə Məmmədova, Gülməmməd Nəzirov kimi qabaqcıl, öz işinə ürəkdən bağlı olan zəhmətkeş, bacarıqlı, intizamlı işçilər çalışır.

Dairəvi hövuzlar sexinin rəisi Mirbaba Miriyevlə söhbətimiz də elə iş üstündə oldu. Məlumat üçün deyək ki, dairəvi hovuzlar sexi zavodun ən füsunkar, heyranedici sexlərindən biridir. Burada saxlanılan balıqları görəndə adam təbiətin bizə bəxş etdiyi gözəlliklər qarşısında söz tapa bilmir. Həm də bu gözəlliyə tamaşa etmək hamıya, özü də həmişə nəsib olmur. Sexin rəisi də əvvəlki həmsöhbətim kimi gördükləri işlərdən həvəslə danışdı, öz işinə can yandıran, peşəkar iş yoldaşlarını da unutmadı, onlardan da söhbət açdı. Dedi ki, seximizdə Arifə Bağırova, Zərifə Ağayeva, Elşad Əliyev, Mübariz Əliyev kimi yaxşı işçilər, mütəxəssislər çoxdur.

Biz zavoda səhər çağı getmişdik, adamlar dəstə-dəstə avtobusdan düşür, qapıda tabelə qol çəkir, hərə öz sexinə yollanırdı. Bu da özlüyündə müəssisədə ciddi əmək intizamının mövcudluğundan xəbər verirdi. Fürsətdən istiadə edərək zavodun həyət-bacasını, sexləri gəzdik, hər tərəfdə işgüzarlığın, səliqə-sahmanın və təmizliyin şahidi olduq. Ana və bala balıqlara tamaşa etdik. Təbiətin bizə təmənnasız bəxş etdiyi sərvətin — nərəcinsli balıqların nəslinin, kökünün kəsilməməsi üçün əllərindən gələni əsirgəməyən bu xeyirxah insanların işi doğrudan da alqışa layiqdir. Gözəlliyi alt-üst olan bu narahat dünyada belə insanların varlığını, nəcib bir kollektivdə birləşməsini, təbiətin üzgəcli "gözəl"lərini qoruyub artırmasını dünyaya nümunə kimi göstərməyə dəyər.

Zabil PƏRVİZ

PAMBIQ YIĞIMI BAŞLANDI: MƏHSULU TEZ VƏ İTKİSİZ TOPLAYAQ

"Ağ qızıl"lı günlərimizin sevincini yaşayırıq



Əlihüseyn HACIYEV, Boyat kəndi, fermer

Kənd təsərrüfatının sahələri, bu sahədə istehsal olunan nemətlər, məhsullar çoxdur. Hamısı da bir-birindən qiymətli, bir-birindən dəyərli. Bunların arasında pambığın xüsusi yeri var. Taxılçılıqda, bağçılıqda, bostançılıqda, heyvandarlıqda bir adamın əkdiyini, becərdiyini onun tək özü yetişdirib hasilə gətirə bilir. Amma pambıqçılıqda belə deyil. Burada gərək bir adamın əkdiyini onlarca adam becərə, barını, bəhərini yüzlərcə adam toplaya, bir yerə yığa. Bu, müəyyən çətinlik, problem yaratsa da, hazırkı dövrdə işsizliyin aradan qaldırılmasında çox böyük önəm kəsb edir.

Biz dədə-babadan torpaq adamı olmuşuq. Həmişə torpaqda çalışmış, torpaqla yaşamış, torpaqla nəfəs almış, torpaqla ölmüş, torpaqla da dirilmişik. Ona görə torpağın dilini yaxşı bilirik, onu ürəkdən sevirik. Vaxt var idi bizim tərəflərdəki torpaqların barını, bəhrəsini yığıb-yığışdırmaq mümkün olmurdu, hər hektardan rekord miqdarda məhsul götürülürdü. Onda atam Xanhüseyn Hacıyev buradakı "1 May" kolxozunun adlı-sanlı, hörmətli, nüfuzlu pambıqçılıq briqadirlərindən biri idi, hər il planı da, öhdəliyi də artıqlaması ilə yerinə yetirirdi...

Heyf ki, sonrakı dövrdə kolxoz quruluşu dağıldı, infrastruktur dəyişdi, vaxtilə bol məhsul yetişdirdiyimiz sahələr illər boyu boş qalıb cəngəlliyə çevrildi. Yalnız möhtərəm Prezidentimiz İlham Əliyevin qayğısı və təşəbbüsü ilə keçən ildən pambıqçılığa diqqət artırıldı, boş qalmış sahələr də əkilib becərilməyə başlandı. Bunun üçün möhtərəm Prezidentimiz İlham Əliyevə ürəkdən minnətdarıq, bu müdrik şəxsiyyətə dərin təşəkkürümüzü çatdırırıq.

Əkinçiliyi mən də atam Xanhüseyn Hacıyevdən öyrənmişəm. Cəsarəti, hünəri də. Gözümü açandan torpaqda çalışmış, 18 il pambıqçılıq briqadiri, 3 il baş aqronom, 10 ildən çox da kolxoz sədri işləmişəm, pambıqçılıq sahəsində dərin təcrübə əldə etmişəm. Buna görə bizim tərəflərdəki çoxdan bəri əkilib becərilməyən, boş qalıb cəngəlliyə çevrilən torpaqlarda pambıq əkmək fikri ortaya çıxanda heç bir tərəddüd hissi keçirmədən həmin torpaqları əkib becərməyi öz öhdəmə götürdüm. Elə bilirəm bununla düz hərəkət etmişəm. Yaşadığım Boyat inzibati ərazisinə daxil olan digər sahələrdə də nəticə gözoxşayandır. İndi hər yanda bol məhsul yetişib. Adamlar becərmədə olduğu kimi, yığımda da fəal iştirak edirlər. Hamımız səy göstəririk ki, rayonumuzun ümumi qələbəsində kəndimizin, elimizin də layiqli zəhmət payı olsun.

Yığım sürətlənir

Zəhmətimizin bəhrə verməsi bizi də ürəkdən sevindirir. Bunun üçün biz də az əziyyət çəkməmişik. Ərazimizin adamları əməksevərdir. Vaxtı ilə kəndimizdəki "Azərbaycan" kolxozunun uğurlarını onlar təmin

edirdilər. Elə sahə yox idi ki, təsərrüfat həmin sahədə müsbət göstəriciyə nail olmasın. Pambıqçılıqdakı nəticələr xüsusilə sevindirici idi. Kolxozumuz da, kolxozçularımız da məhz bu sahədən gələn gəlir hesabına varlanmışdılar. Dolanışıq xeyli dərəcədə yaxşılaşmışdı. Adamlar özlərinə maşın almışdılar, yaraşıqlı ev tikdirmişdilər, gün-güzəran düzəltmişdilər. Hamısı da pambığın, pambıqçılığın sayəsində. 90-cı illərdən sonra kənddəki çətinliklərin başlıca səbəbi pambıqçılıqdan uzaqlaşmağımız, bu qiymətli bitkini əkib-becərməməyimiz oldu.

Nə yaxşı ki, bütün bunlar keçmişdə qaldı. Möhtərəm Prezidentimiz İlham Əliyevin qayğı və diqqəti sayəsində kəndimiz, el-oba yenidən 70-ci illərin qanar günlərini yaşayır. Neçə gündür ki, pambıq yığımına başlamışıq. Xəyal Əhmədovun, Nazim Abdullayevin, Şahin Rəsulovun, Nazim Başirovun və digər fermerlərimizin sahələrində bol məhsul yetişmişdir. Becərmədə olduğu kimi yığımda da qadınlar yaxşı iş nümunələri göstərirlər. Gülarə Əliyeva, Sürəyyə Əliyeva, Zəminə Qənbərova, Gülnarə Babayeva, Rəsmiyyə Abuşova və başqaları hər gün adama 60-70 kiloqram məhsul toplayırlar. Çalışırıq ki, tədarük məntəqəsinə yola saldığımız pambığın ümumi çəkisini gündən-günə artıraq.

Yığımın sürətində bizə köməyə gələnlərin də zəhməti az olmayacaq. Onlara təşəkkürümüzü qabaqcadan bildiririk. İnanırıq ki, axıra kimi yanımızda olacaqlar, bizə kömək göstərməklə yanaşı özləri də əlavə pul qazanacaqlar. Necə deyərlər, halal xoşları

olsun. Elə pambıqçılığa meydan veriləndə də dövlətimizin başçısı bunu hədəf götürmüşdü.

İlqar BAĞIROV,
Aşağı Surra kənd inzibati ərazi dairəsi üzrə nümayəndə əvəzi

Qayğıya əmək töhfələri ilə cavab verirlər

Əvvəlki illərdən fərqli olaraq bu yaz bir başqa cür gəlmişdi ömrümüzə. Möhtərəm Prezidentimizin xeyir-duasından sonra pambıq əkənlərin sayı birə-beş artmışdı. Dünənə kimi bu sahədən üz çevirənlərin yenidən bu sahəyə qayıdaraq torpağa baş əymələri, sahələrə çiyid səpmələri məhz bu xeyir-duadan sonra başlamışdı.

Bu böyük zəmanət Aşağı Qaramanlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin ərazisində yaşayan insanları da hərəkətə gətirmişdi. Bu barədə nümayəndə Emin Bağırov belə deyir:

— Əvvəllər narahatlığımız əsasən işsizlik sarıdan idi. Bizə müraciətlərin çoxu da elə bununla bağlı olurdu. Daha belə bir problemimiz yoxdur. Pambıqçılığın inkişafına geniş meydan verilməsi kənddə işsizliyi, demək olar ki, minimuma endirib. İndi çoxlu sayda insanlar pambıq tarlalarında çalışır, bu sahədən faydalanırlar. Özü də bu hələ başlanğıcdır. Yəqin qarşıdakı illərdə vəziyyət daha da yaxşılaşacaq. Kənd adamlarına göstərdiyi qayğı və diqqətə görə dövlətimizin başçısı cənab İlham Əliyevə biz də ürəkdən minnətdarıq.

Nümayəndə E.Bağırovun sözlərindən aydın oldu ki, bu il onların ərazisində 760 hektar sahədə pambıq əkilmişdir. Söhbətə qoşulan fermer Səmid Tağıyev əlavə edərək dedi:

— Pambıq yetişdirmək asan deyil, çox çətindir. Bunu becərənlər yaxşı bilir. Bu bitki ilk gündən diqqət, qayğı tələb edir. Gərək gözün üstündə olsun. Suyunu, kubrəsini vaxtında verməsən, dibini yumşaltmasan, ziyanvericilərdən qorumasan istədiyini ala bilməzsən. Bunları sözdə demək asandır. Hər bir aqrotexniki tədbirin arxasında böyük peşəkarlq durur. Körpəlikdən qayğısını çəkdiyimiz pambıq kollarını, bax, beləcə mərhələlərdən keçirə-keçirə gətirib bu yerə çıxarmışıq. Şükür ki, zəhmətimiz hədər getmədi. İndi tarlalar ağappaqdır. Yığ, təhvil ver, halalca haqqını al. Biz də bunu istəyirdik. İllərlə işsiz qalan adamlar da bunu gözləyirdilər.

Nümayəndə Emin Bağırov torpaqda pambıq əkib becərən, məhsul yetişdirən digər fermerlərin, torpaq mülkiyyətçilərinin adlarını da hörmətlə çəkdi. Dedi ki, Əziz Əliyevin, Əlişad Bağırovun, Əliqulu Tağıyevin və digərlərinin sahələrində də bol məhsul yetişib. Adamlar pambıq yığmaqda da fəal iştirak edirlər. Zülfiyyə Məmmədova, Simuzər Babayeva, Elnarə Sadıqova, Gülsabah Məmmədova, Nazqayıt Rzayeva, Aygün Bağırova və başqaları ərazimizin sürət ustaları, öndə gedənləridir. Hər gün 70-80 kiloqram məhsul toplamağa nail olan bu qızlar, qadınlar axıradək qabaqcıllığı əldə saxlamaq, öndə getmək əzmindədirlər.

Gördüklərimizdən, eşitdiklərimizdən biz də sevindik. Sevindik ki, kəndlərimiz əvvəlki qaynar günlərinə

qayıdıb. İnsanların məşğulluğu, dolanışığı üçün yaxşı şərait yaradılıb. Bundan razı qalan insanlar da borclu qalmaq istəmirlər. Çalışırlar ki, qayğıya qazandıqları uğurlarla cavab versinlər.

Murad ƏHMƏDOV

* * *

Bu günlərdə daha bir yeni pambıq qəbulu məntəqəsi Neftçala şəhərindən Həsənabad qəsəbəsinə gedən asfalt yolun sağ tərəfində tikilmişdir. Müasir layihə olduğundan burada da hər şey yetərincədir. "Neftçala kənd təsərrüfatı" MMC ilə müqavilə bağlayan torpaq mülkiyyətçiləri, fermerlər topladıqları "ağ qızıl"ı bura təhvil verəcəklər. Bu məntəqədə də pambığın normal qəbulu, normativlərə uyğun saxlanılması, yanğın təhlükəsizliyi ilə əlaqədar tədbirlər görülmüşdür.

Yeni pambıq qəbulu məntəqələri

İndiyə kimi bütün diqqət pambığın becərilməsinə, tarlalarda bol məhsulun yetişdirilməsinə yönəldilmişdi. Çəkilən birgə zəhmət nəticəsində buna nail olunub. Sahələr başdan-başa ağ örpəyə bürünüb. İndi əsas məsələ böyük zəhmət bahasına hasilə gələn el sərvətini vaxtında yığıb yığışdırmaq, itkiyə yol verməməkdir. Bu işdə yığımda iştirak edənlərlə yanaşı qiymətli məhsulu tədarük edənlərin üzərinə də böyük məsuliyyət düşür. Ümumilikdə bu il rayon üzrə 944 mülkiyyətçi MKT MMC ilə 4555,5 hektar, "CTS Aqro" MMC ilə 51,8 hektar, "Neftçala kənd təsərrüfatı" MMC ilə 6503,7 hektar (280 hektar tam təminatlı, 6223,7 hektar qismən təminatlı) sahədə müqavilə bağlanmışdır. Buna görə həmin təşkilatlar məhsulun qəbulu, tədarükü ilə bağlı da lazımi hazırlıq tədbirləri həyata keçirmişlər.

Mövsümlə əlaqədar yeni pambıq qəbulu məntəqələrindən biri Netçala dəmiryol stansiyasının yaxınlığında inşa olunmuşdur. Neçə vaxt idi yoldan keçənlər burada inşa olunan obyektə maraqla tamaşa edirdilər. Sonradan məlum oldu ki, ərazidə qurulan pambıq qəbulu məntəqəsidir. Məntəqənin inşası üçün 5 hektar torpaq sahəsi ayrılmışdır. Layihənin icrasını "Taxıl" ASC həyata keçirmişdir. Məntəqənin illik istehsal gücü 4 min tondur. Bu barədə cəmiyyətin sədri Rafiq İbrahimov deyir:

— Vaxtilə buralarda əmək bulaq kimi qaynayırdı. Hər gün Neftçala dəmir yolu stansiyasına müxtəlif yüklərlə dolu çoxlu sayda vaqonlar daxil olurdu. Rayonun tikinti, ticarət və digər təşkilatları ünvanlarına gələn yükləri vaxtında daşımaq üçün fəallıq göstərirdilər. Stansiya bağlanandan sonra buralarda fəaliyyət də dayanmışdı, hər tərəf sakitlik idi. Məntəqəmizin işə düşməsilə əlaqədar əvvəlki ritm qayıdır. Torpaq mülkiyyətçiləri, fermerlər istehsal etdikləri pambığı buraya təhvil verəcəklər. Məntəqəmizdə məhsulun normal qəbulu üçün hər cür şərait yaradılmışdır. Stanldartlara uyğun qurulmuş taya meydançaları qaydasındadır. Yanğın təhlükəsizliyilə əlaqədar lazım olan bütün tədbirlər görülmüşdür. Ətrafda səliqə-sahman yaradılır, ağaclar əkilir. Bu işlər gələcəkdə də daim diqqətdə olacaqdır. Ən ümdə olanı isə adamların özlərinə yeni iş yerləri tapmalarıdır. Onların sevinci bizi də ürəkdən sevindirir. Əl-ələ verərək çalışacağıq ki, üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirək, elin sərvətini yaxşı qoruyaq.

AZADLIQ YOLU NEFTÇALADAN KEÇİRDİ

Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda "Azərbaycan" qəzetinin 1918-ci ildəki 29-cu №-sində dərc olunmuş maraqlı bir məqalə ilə tanış oldum. Məqalə Bakının azad edilməsi hərəkatını təsdiq edən mənbə rolunu oynayırdı. Sənədlə məni həmyerlimiz, filologiya üzrə fəlsəfə doktoru Əli Məmmədbağıroğlu tanış etdi. Fürsətdən istifadə edib ona da öz təşəkkürümü bildirirəm. Sənəd tarixi əhəmiyyətinə görə misilsizdir. Daha maraqlısı və bir neftçalalı kimi mənim üçün qürurverici hal orasındadır ki, sənəddə təsvir olunan hadisələr məhz Neftçala rayonunun kəndlərində baş vermişdir, əhalinin və türk ordusunun əzmli mübarizəsi nəticəsində düşmən dəf edilmişdir.

Qarşıdan Azərbaycan dövlətçiliyi tarixinin 100 illik yubileyi gəlir. Arxiv sənədləri və "Azərbaycan" qəzetinin həmin nömrəsində çap olunmuş məqalədəki faktlar əsasında hazırladığım yazını rayonumuzun doğma mətbuatına — "Gündoğar" qəzetinə təqdim etməyi özümə borc bildim.

Sentyabrın 15-də Bakının bolşevik hərbi birləşmələri, yadelli işğalçılar və daşnak quldurlardan azad edilməsinin 99-cu ili tamam olur. Bu, Azərbaycan xalqına aid ən şərəfli tarixlərdən biridir. 15 sentyabr 1918-ci il tarixinin yazılmasında Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun xüsusi rolu olub. Bu ordu Bakının azad edilməsində böyük şücaətlər göstərib, onun tərkibində vuruşan yüzlərlə türk əsgəri şəhidlik zirvəsinə yüksəlib.

99 il öncə, 1918-ci il mayın sonlarında Zaqafqaziya Seymi dağılmış, mayın 28-də Azərbaycan müstəqilliyini elan etmişdi. Həmin vaxt Azərbaycan Demokratik Respublikasını (ADR) tanıyan ilk dövlət Türkiyə oldu. Müstəqilliyini elan etdikdən sonra ADR-in paytaxt məsələsi gündəmə gəldi. O zaman Bakı işğal altında olduğundan milli hökumətin müvəqqəti olaraq Gəncədə fəaliyyətə başlaması barədə qərar qəbul edildi. Milli hökumətin ixtiyarında cəmi 600 nəfərlik hərbi qüvvənin olması Gəncəni işğalçılardan azad etməyə imkan vermirdi. Belə bir ağır vəziyyətdə Azərbaycan milli hökumətinin kömək istəyə biləcəyi yeganə dövlət Türkiyə idi. Və belə bir kömək üçün qardaş dövlətə müraciət edildi. 1918-ci il mayın sonunda Türkiyənin hərbi naziri və ali baş komandan müavini Ənvər Paşa bu xahişləri nəzərə alaraq öz qardaşı Nuru Paşaya rəhbəri olduğu hərbi hissələrlə birlikdə Təbriz ətrafından Gəncəyə doğru hərəkət etmək barədə əmr verdi.

Müvəqqəti olaraq Gəncədə yerləşən milli hökumətin qarşısında duran başlıca məqsəd isə paytaxt Bakını işğalçılardan azad etmək idi. Yeri gəlmişkən, 1918-ci il iyunun 4-də Azərbaycan hökuməti ilə Osmanlı dövləti arasında "Qarşılıqlı yardım və dostluq haqqın"da müqavilə imzalandı. Həmin müqavilənin 4-cü bəndinə əsasən, Osmanlı hökuməti ehtiyac olduğu halda Azərbaycana hərbi yardım göstərməyi öhdəsinə götürmüşdü. Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun Bakıya doğru irəliləməsi Azərbaycan paytaxtına göz dikən yadelli qüvvələrə rahatlıq vermirdi. Bu ordunun tərkibini Osmanlı və Azərbaycan türkləri təşkil edirdi. O dövrə aid tarixi mənbələrin məlumatına görə, Bakı işğaldan azad edilənədək, şəhər bir neçə dəfə yadelli qüvvələr tərəfindən əldən-ələ keçmişdi. 1918-ci ilin iyulunda Bakıda Xalq Komissarları Soveti iflasa uğradı. Bu həmin hökumət idi ki, onun vaxtında Bakı və ətraf ərazilərdə ermənilər tərəfindən Azərbaycan türklərinə qarşı ağılasığmaz soyqırım siyasəti həyata keçirilmişdi. Soyqırımın həyata keçirilməsində bolşevik hökumətinə rəhbərlik edən Stepan Şaumyanın xüsusi rolu olmuşdu: "1918-ci ilin avqustunda Denstervilin komandanlıq etdiyi ingilis qoşunları Bakını zəbt etdi və şəhərdə Sentrokaspi adlı hökumət quruldu. Sentrokaspinin həyata keçirdiyi siyasət mahiyyət etibarilə Bakı Xalq Komissarları Soveti kimi antiazərbaycan xarakteri daşıyırdı. Çünki Bakı neftinə sahib çıxmaq, Xəzər dənizini ələ keçirmək, Mərkəzi Asiyaya gedən yola nəzarət etmək niyyəti güdən bu hökumət ermənilərə və digər yad qüvvələrə arxalanırdı.1918-ci ilin iyulundan Qafqaz islam Ordusu artıq Bakının azad edilməsi istiqamətində hərəkətə keçmişdi. 1918-ci il sentyabrın 15-də - Qurban bayramı günündə Bakı işğalçılardan azad edildi. Şəhər uğrunda döyüşlər heç də asan getmədi. Bəzi məlumatlara görə, bu döyüşlərdə mindən artıq türk əsgəri və zabiti həlak oldu. Yerli əhalidən isə şəhidlərin sayı 5 mindən artıq idi. Qardaş Türkiyənin hərbi dəstəyilə Bakının azad edilməsi Azərbaycan tarixinə daha bir zəfər gününün yazılması demək idi. Bu, eyni zamanda dahi Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir!" fikrinin əyani təsdiqi idi. Bakının azad edilməsindən iki gün sonra Azərbaycan hökuməti müvəqqəti paytaxt olan Gəncədən Bakıya köçürüldü. Bu isə ölkədə tamamilə yeni bir şərait yaratdı. Bundan sonra Azərbaycan hökuməti özünün elm, mədəniyyət, incəsənət mərkəzinə qovuşmuş oldu. Bakının azad edilməsinin böyük əhəmiyyəti vardı. Çünki Azərbaycanı Bakısız təsəvvür etmək olmazdı. Milli hökumətin Bakıya köçməsilə şimali Azərbaycan bütövləşdi. Əgər 1918-ci ilin sentyabrında Bakı azad edilməsəydi, bu şəhərin indi Azərbaycanın paytaxtı olması sual altında qalardı. Axı bolşeviklər Bakını Azərbaycandan ayıraraq onu muxtar şəhərə çevirməyi planlaşdırmışdılar. Bir sözlə, Bakının xilası, onun milli şəhər simasının bərpa edilməsi Azərbaycan adlı dövlətin əbədi varlığına hesablanmış tarixi zəfər idi.



Rövşən HƏSƏNOV,
Ə.Piriyev adına şəhər 2 saylı tam orta məktəbinin direktoru, Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun doktorantı

Yazdıqlarımıza qayıdırıq

NÖQSANLAR ARADAN QALDIRILIR

Rayonumuzda illərdən bəri davam edən abadlıq, quruculuq işləri bu gün də diqqətdədir. Bu işlər bu gün də uğurla davam edir. Dövlətin vəsaiti hesabına görülən işlərlə yanaşı, ayrı-ayrı idarə və müəssisələr, təşkilatlar da öz vəsaitləri hesabına müəyyən abadlıq tədbirləri həyata keçirir, ətrafda səliqə-sahman yaradırlar.

Qəzetimizin 11 may 2017-ci il tarixli sayındakı "Göz oxşayan və oxşamayan mənzərələr" sərlövhəli reyd yazısında da bu məsələdən bəhs olunurdu. Digər bir sıra idarə və müəssisələrlə yanaşı "Neftçala-Avtonəqliyyat" açıq səhmdar cəmiyyətindəki səliqəsizlik də tənqid edilirdi. Həmin yazıda bu səliqəsizliyi əks etdirən şəkil də vermişdik. Aradan müəyyən vaxt keçdikdən sonra müəssisədən bildirdilər ki, qeyd olunan nöqsan və çatışmazlıqlar aradan qaldırılır, istəsəniz özünüz də gəlib baxa bilərsiniz. Doğrusu, eşitdiyimiz xəbər bizi çox sevindirdi. Yenidən həmin ünvana yollandıq. Bizi müəssisənin həyətində uzun illər ASC-yə bacarıqla rəhbərlik edərək rayon ictimaiyyətinin dərin hörmətini qazanmış mərhum Hacıbaba Rəcəbovun oğlu Elvin Rəcəbov qarşıladı.

— Atamın vəfatından sonra cəmiyyətin idarə heyətinin qərarı ilə buraya anam Gülnaz Rəcəbova rəhbərlik edir. Bu gün xəstəhal olduğuna görə onu mən əvəz etməli oldum. Nə sualınız olsa mən də cavablandıra bilərəm. Atamın uzun illər çalışdığı, qurub-yaratdığı bu müəssisə mənim üçün çox doğmadır. Rayon polis şöbəsində məsul vəzifə daşımağıma baxmayaraq boş vaxtlarımda bura tez-tez baş çəkirəm. Elə bəri başdan deyim ki, qəzetinizin tənqidi qeydlərini də müsbət qarşılayıram. Haqlı sözə nə demək olar?! Ancaq müəssisə əvvəlki müəssisə deyil. Maliyyə imkanları çox zəifləyib. Buna baxmayaraq o vaxtdan başlayaraq müəyyən tədbirlər görürük və bu tədbirlər bu gün də davam edir. Gələn ildən isə bu işlər kompleks xarakter alacaqdır. Bunun üçün indidən layihə-smeta sənədləri hazırlanır.

İnsafən, qısa vaxtda az iş görülməmişdi. Qeyd etdiyimiz qüsurların bir çoxu aradan qaldırılmışdı. Biz ora çatanda işçilərin təmir olunaraq qaydaya salınmış istirahət köşkündəki şirin söhbəti, mətbuatı nəzərdən keçirmələri də bunu göstərirdi. Halbuki, əvvəlki gəlişimizdə köşkü köşk olmadığına görə çəkərək qəzetə də vermişdik. İdarə binasının fasad hissəsinə emulsiyanın verilməsi, həyətyanı sahədəki ağacların diblərinin şumlanması, qapı-pəncərənin rənglənməsi və görülən digər işlər adamda xoş təəssürat yaradırdı. Elvin Rəcəbovun dediklərindən aydın oldu ki, başlanmış işlər tədbirlər planına uyğun olaraq bundan sonra da davam etdiriləcəkdir.

E.Rəcəbov müəssisənin nəqliyyat fəaliyyəti barədə də ətraflı məlumat verdi. Aydın oldu ki, burada müxtəlif markalardan olan 24 avtobus var. Neftçala-Salyan, Neftçala-Şirvan, Neftçala-Bankə, Neftçala-Qoltuq yaşayış məntəqəsi, Neftçala-Kürkənd, Neftçala-Mirqurbanlı, Neftçala-Mayak, Neftçala-Şirvanlı və digər marşrutlarda hərəkət edən bu avtobuslar hər gün yüzlərlə, minlərlə insanları mənzil başına çatdırırlar. Bu il bir neçə yeni avtobusun alınması nəqliyyat xidmətini daha da yaxşılaşdırmağa imkan verir. Yaxın vaxtlarda bir neçə şəhərə də marşrutların açılması nəzərdə tutulur.

Uzun illərin təcrübəsi burada çalışan sürücüləri də xeyli dərəcədə zənginləşdirib. Mərdan Manafov, Qurban Əsgərov, Rəşad Xankişiyev, Süleyman Əsgərov, Natiq Abdullayev yaxşı xidmətlərilə sərnişinlərin hörmətini qazanmışlar. Cəlilabad regional nəqliyyat departamenti ilə qurulan birgə fəaliyyət lazım olan tədbirləri ardıcıllıqla yerinə yetirməyə imkan verir. Bu tədbirlər və xidmət Rabitə, Yüksək Texnologiyalar və Nəqliyyat Nazirliyinin tövsiyələri əsasında qurulur.

Müəssisənin özünə məxsus yaxşı ənənələri var. Burada yaradılmış xeyriyyə fondundan xeyirdə, şərdə, demək olar ki, hamı faydalanır, müəyyən ehtiyaclarını ödəyir. Belə vaxtlarda müraciət edən şəhid ailələrinə pulsuz nəqliyyat xidməti göstərilir. Cəmiyyətin kollektivi müəssisədaxili iməciliklərlə yanaşı, ümumrayon iməciliklərində də fəal iştirak edir, verilən tapşırıqları layiqincə yerinə yetirməyə çalışır. Sürücülərin sağlamlığı, avtomobillərin texniki cəhətdən saz saxlanılması daim diqqət mərkəzindədir.

44 il bundan qabaq Neftçala müstəqil rayon kimi yenidən bərpa olunandan sonra burada yaradılan idarə və müəssisələrin bir çoxu fəaliyyətini dayandırmalı olsa da, Avtonəqliyyat müəssisəsi bu gün də işləyir, rayon əhalisinə xidmət göstərir. Əlbəttə, kollektiv buna asanlıqla nail olmur, çətinlikləri aradan qaldıra-qaldıra irəli gedir. Yəqin sabah da belə olacaq. Ona görə ki, burada çalışanlar işlərinə bağlı, peşələrini ürəkdən sevən insanlardır. Onlar birlikdə sevindikləri kimi, çətinlikləri də birlikdə aradan qaldırmağı bacarırlar.

Murad ƏHMƏDOV

GÜNDOĞAR

№ 25-26 (6649) 3 sentyabr 2017-ci il

SON SƏHİFƏ

Tədbir Mahmudov — 80

TƏHSİLƏ BAĞLI ÖMÜR

Sizə qocaman bir təhsil işçimiz haqqında söhbət açmaq istəyirəm. Ömrünün səksəninci ilini yaşayan, uzun illər rayonun təhsil sisteminə rəhbərlik etmiş, təhsil şöbəsinin müdiri vəzifəsində çalışmış respublikanın Əməkdar müəllimi Tədbir Mahmudovu deyirəm...

Tədbir müəllim rayon təhsil şöbəsinin müdiri vəzifəsinrdə iki dəfə çalışıb. Ona əvvəlcə sərt, tələbkar bir rəhbər işçi olan İbrahim Qurbanov etimad göstərib, onu inamla irəli çəkib, orta məktəb direktorluğundan rayon təhsil şöbəsinin müdiri vəzifəsinə gətirib. Sonra da Tədbir müəllim gənclərin böyük, qayğıkeş hami-tərbiyəçisi, gənc kadrları qayğı ilə irəli çəkən, onlara vəzifə tapşıran, istiqamət verən Vilayət Seyidovla, idarəetmənin bütün sahələrinə dərindən bələd olan Aslan Süleymanovla, yaddaşlarda səmimi, mülayim bir ziyalı kimi qalmış Şamil Hüseynovla, rayonun tarixində ona ən uzun müddət rəhbərlik etmiş Seyfəddin Məmmədovla birlikdə çalışıb, onların da dərin hörmətini, etimadını qazanıb.

Tədbir Mahmudovun bacarığını, işgüzarlığını, təşəbbüskarlığını həmişə yüksək qiymətləndiriblər, müxtəlif mükafatlara layiq görüblər. O, təhsil sahəsinin ən yüksək mükafatı sayılan respublikanın Əməkdar müəllimi fəxri adına da layiq görülüb. Bütün bu nailiyyətləri əldə etmək, o mükafatları qazanmaq Tədbir müəllimə, əlbəttə ki, asan başa gəlməyib. Bu yolda o çoxlu maneələrlə, çətinliklərlə üzləşsə də heç vaxt ruhdan düşməyib, həmişə irəli baxıb, yeni-yeni arzularla, istəklərlə yaşayıb, yaradıb.

Bizim ilk tanışlığımız 17 avqust 1979-cu ildə oldu. Cəlilabad şəhər 1 saylı orta məktəbində təyinatımı başa vurduqdan sonra rayonumuza döndüm. Tədbir müəllimlə təhsil şöbəsinin qarşısında görüşdüm. Əvvəllər də uzaqdan-uzağa tanışlığımız var idi. İndi isə gənc müəllim kimi onun yanına iş istəməyə gəlmişdim. Əhvalımı soruşdu, Cəlilabaddakı dostları ilə maraqlandı və əsas mətləbə keçdi:

— İstəyirəm sən Həsənabad məktəbində işləyəsən, — dedi. — Dərs saatı az olsa da perspektivlidir. Məktəb təzə tikilir, hələ tamamlanmayıb. Bir də... orada müəllimlər üçün ev tikilir. Növbəyə durarsan, bəlkə qısmətinə düşdü, həmişə subay qalmayacaqsan ki... — Dörd ay öncə ailə həyatı qurduğumu bilməndə əlavə etdi, — məsləhətdir.

Onun dediyi kimi etdim. Həsənabad məktəbində işə başladım, ev növbəsinə dayandım. Bir neçə aydan sonra mənim də qismətimə 3 otaqlı bir mənzil düşdü. Sevinirdim. Lap uşaq kimi. Heç bir il deyildi ki, rayonun ən böyük məktəblərindən birində işə başlamışdım. Bu müddətdə əvvəl ibtidai siniflər üzrə direktor müavini, sonra da tərbiyə işləri üzrə təşkilatçı vəzifəsinə irəli çəkilmiş, mənzil almışdım. Bu, Tədbir müəllimin mənim kimi gənc mütəxəssislərə göstərdiyi qayğı idi... Bu, qiymətləndirmək bacarığı, insan həyatına verilən düzgün qiymət, işgüzar kadrları ruhlandırmaq təşəbbüsü idi. Özü də Tədbir müəllim bütün bu yaxşılıqları minnətsiz, təmənnasız edirdi...

...Yeni mənzil almış səkkiz müəllim ailəsinə (Əhədova Məsməyə, Həsənova Naziləyə, Hüseynova Səbirəyə, Dadaşov Abdurrəhmana, Əsədov Tahirə, Mahmudov İlqara, Mehtiyeva Qalyaya, Məmmədova Gülnaza) orderlər təqdim edildikdən sonra razılaşdıq ki, bu münasibətlə kiçik bir şirni stolu təşkil edək, Tədbir müəllimi də tədbirimizə dəvət edək. Zarafat deyildi, az bir vaxt ərzində məktəbə yaxın bir yerdə pulsuz, təmənnasız ev almışdıq. Tədbir müəllimi israrla məclisimizə dəvət etdik. İşinin çoxluğundanmı, ya yorğun olduğuna görə dəvətimizi qəbul etmədi, məclisimizə gəlməkdən boyun qaçırdı:

— Şirinliyinizi mənsiz qeyd edin, — dedi, — qismət olsa başqa bir vaxtda sizə gonaq gələrəm...

Heyfsiləndik ki, belə bir yaxşılıqdan sonra Tədbir müəllim bizim bir stəkan çayımızı da içmədi. Amma bu təmənnasızlığı ilə o bizim qəlbimizdə, yaddaşımızda əbədi iz qoydu, birdəfəlik yaşadı...

Çətin, qarışıq illərdən keçib gəlmişik bu günlərə biz. 90-cı illərin əvvəllərində Xalq Cəbhəsi hakimiyyətə gələndə həyat sanki məntiqini itirmişdi. Kadrlar biliyinə, bacarığına, təcrübəsinə görə yox, yalnız "siyasi amillərə" görə seçilib yerləşdirilməyə başlamışdı. Onda rayonun bir çox oturuşmuş, dərin təcrübəyə malik dəyərli kadrları ilə bir sırada Tədbir Mahmudov da tutduğu vəzifədən kənarlaşdırılmışdı. Düz deyiblər ki, insan çətində sınanır... O qarışıq illər insanların sınağa çəkildiyi bir dövr idi. Heyf ki, onda çoxları həmin sınaqdan yaxşı çıxa bilmədi... Bununla bağlı bir hadisə heç yadımdan çıxmır...

2002-ci ilin avqust konfransına Tədbir müəllimi dəvət etməmişdilər. Ancaq Tədbir müəllim həmin konfransa gedib onun işində iştirak etmək qərarına gəlmişdi. Getmişdi də konfransa. Uzun illər ərzində neçə-neçə insanın əlindən tutan, ilk müəllim, tərbiyəçi, direktor kimi qayğısını çəkən, neçə-neçə insana xeyir-dua verən Tədbir müəllim indi meydanda tək qalmışdı, ətrafı boş idi... Sakitcə keçib onun yanında əyləşdim, axıra qədər konfransın gedişini birlikdə izlədik. Rayon təhsilini irəli aparan gözəl təklif verənlər də oldu orada, gözdən pərdə asanlar, çıxış xatirinə çıxış edənlər də...

İclasdan çıxıb evə yollandıq. Maşınımız yox idi, piyada qalmışdıq. Tədbir müəllim gözümə bir təhər, qüssəli görünürdü. İrəlidə tanış bir məktəb direktorunun maşınının qapısını açıb sükan arxasına keçmək istədiyini gördük. Sevindik, üzümüzə təbəssüm qondu. Yaxınlaşıb salamlaşdıq, hal-əhval tutduq.

— Bizi evə apararsanmı? — Tədbir müəllim ərklə xəbər aldı. Direktorun üzündə çaşqınlıq, təşviş yarandı. Qorxa-qorxa ətrafına boylanaraq:

— Siz belə edin — dedi, — bir tin irəli gedin, gəlib orada sizi götürərəm.

Heç nə demədi Tədbir müəllim. Başını aşağı salıb artıq yaxınlaşmaqda olduğumuz avtobus dayanacağına doğru üz tutdu....

Tədbir Mahmudovun özəllikləri, başqalarına bənzəməyən, başqalarında görünməyən, təkrar olunmayan hərəkətləri, xüsusiyyətləri çoxdur. Dünya malından daha çox Tədbir müəllimi başqa istəkləri, arzuları, amalları düşündürüb. El-obanın dünəni, bu günü, sabahı, gələcəyi ilə bağlı olan istəkləri, arzuları, amalları. Bu yolda o ömrünü həmişə şam kimi əridib, heç vaxt heç nəyini əsirgəməyib. Bu ahıl vaxtında da o eyni istək, eyni arzu, eyni amallarla yaşayır, eyni istək, eyni arzu, eyni amallar uğrunda mübarizə aparır. Yaşının çox, səhhətinin ağır olmasına baxmayaraq heç vaxt evində oturub qalmır, vaxtilə dərs dediyi, direktorluq etdiyi məktəbdə gələcək nəsillər üçün respublikada analoqu olmayan təhsil muzeyi yaradır, bu muzey üçün yeni-yeni eksponatlar toplayır, orada maraqlı tədbirlər hazırlayıb keçirir. Tədbir müəllim belə şeylərə başını ağrıtmaqdan heç vaxt çəkinmir. Bir dəfə sözarası dedim başım yaman ağrıyır. Osa dərhal dedi, baş elə ağrımaq üçündür. Bu da Tədbir müəllimin maraqlı bir aforizmi idi. O, ömrü boyu başını ağrıtmaqdan çəkinməyib, böyük işlər görməkdən doymayıb...

Son vaxtlar Tədbir müəllim səhhətindən, ürəyindən çox gileylənir. Axı, bu bir parça ət tikəsi neyləsin, illərlə daşıdığı ağır yüklərə ürək necə dözsün?! Amma dözür yenə də Tədbir müəllim bu yüklərə, bü ağrılara, onlara təslim olub yerində oturmur. Tez-tez böyük şair Səməd Vurğunu yada salıb xatırlayır, onun məşhur misralarını təkrarlayır:

Saç ağardı, ancaq ürək
Alovludur əvvəlki tək.
Saç ağardı, ancaq nə qəm!
Əlimdədir hələ qələm...

Həmişə belə inamlı, dözümlü, mətin olun, Tədbir müəllim! Ürəyiniz təpərdən heç vaxt düşməsin, iti qələminiz həmişə əlinizdə olsun. Yaşayın, yaradın... Bu dünyada uzun illər ömür sürüb yaşamağa, həmişə böyük işlər görməyə haqqınız, ləyaqətiniz var Sizin...

TAHİR ƏSƏDOV

Tələbələrimizin ürək sözləri

HÜQUQŞÜNAS OLACAĞAM

Bir daha əyani şəkildə görüb inandım ki, hər bir böyük uğurun arxasında böyük zəhmət durur. Həmyaşıdlarımın bir çoxu vaxtlarının çoxunu əyləncələrə, kompüter oyunlarına və digər lüzumsuz işlərə sərf edəndə, mən bir qayda olaraq kitablarla ünsiyyətdə olurdum: oxuyurdum, çalışırdım, öyrənirdim. Qəbul imtahanında 700 bal toplamaq hədəfim idi. Bunun uğrunda illərlə mübarizə apardım, səy göstərdim, yuxusuz gecələr keçirdim. Amma 700 yox, 691 bal toplamağa nail oldum. Hədəfimə çata bilməsəm də, bu, rayonumuzda ən yüksək göstəricidir. Qazandığım uğura görə ilk növbədə valideynlərimə, müəllimlərimə borcluyam. Onların zəhmətini, qayğı və diqqətlərini heç vaxt unutmayacağam. Mən həyat eşqini, gücü, qüvvəti məhz göstərilən qayğı və diqqətdən, mənə bəslənilən inamdan, ümiddən aldım. Kamala yetdiyim təhsil ocağında — Yuxarı Qaramanlı kənd tam orta məktəbində bir-birindən şirin xatirələrim qalıb. Bu isti xatirələri unutmaq mümkün deyil.

Hüquqşünas olmaq, insanların hüquqları keşiyində dayanmaq ən böyük arzum idi. Xoşbəxtəm ki, arzuma yetmişəm. Bilirəm ki, tələbəlik illərim də asan keçməyəcək. Daha çox oxuyub öyrənməli olacağam. Yoxsa savadlı, bilikli hüquqşünas olmaq mümkün deyildir. Oxuyacağım universitetlə fəxr etməyə dəyər. Təkcə respublikamızda deyil, respublikamızdan kənarda da tanınan, şöhrət qazanan bir çox insanlar məhz burada yetişmişdir. Calışacağam mən də belələrindən olum, elimizin, obamızın başını uca edim.



Ülvi ABIZADƏ,
Bakı Dövlət Universiteti hüquq fakültəsinin tələbəsi

AQRAR SAHƏDƏ ÇALIŞMAĞA ÜSTÜNLÜK VERDİM

Bu sahənin inkişafı, onun yeni texnologiyalar əsasında qurulması bu gün dünyanı düşündürən əsas məsələdir. Belə olmasa lazımi səviyyədə, keyfiyyətli ərzaq məhsulları istehsal etmək çətindir. Daha dədə-baba üsulu ilə işləməyin vaxtı keçib. İndi qabaqcıl təcrübə, elm öz sözünü deməlidir. Deyir də. Ayrı-ayrı ölkələrdə qazanılan böyük uğurlar, sevindirici nəticələr məhz elmin nailiyyətlərinə əsaslanmaqla əldə olunur. Yeni texnologiyalarla işləməyin özü də çox maraqlıdır. O şərtlə ki, onun dilini yaxşı biləsən, onunla işləməyi bacarasan. Bunu isə ali təhsil müəssisəsində öyrədirlər. Onların arasında Azərbaycan Dövlət Aqrar Universitetini seçməyimdən məqsəd də elə bu idi. Dövlətin aqrar sahəyə diqqəti mənə böyük stimul verdi. Artıq universitetin ikinci kursunda oxuyacam. Kənd təsərrüfatı elmlərini dərindən bilən müəllimlərimizi diqqətlə dinləmədən, təcrübələrdə, məşğələlərdə fəal iştirak etmədən buna nail olmaq çətindir. Ona görə çalışıram ki, seçdiyim ixtisasımın nəzəri əsaslarını dərindən öyrənim, rayonumuza yaxşı mütəxəssis kimi qayıtmaqla əmək meydanında öz sözümü deyim.



Ədalət MƏMMƏDOV,
Azərbaycan Dövlət Aqrar Universitetinin tələbəsi

MƏN İSƏ TURİZMİ SEÇDİM

Bu heç də təsadüfi deyil. Elə ölkələr var onların əsas gəlir mənbəyi turizmdir. Turizmin gücləndirilməsi, genişləndirilməsi təkcə gəlir gətirmir, həm də ölkəni xaricdə reklam edir, tanıdır, dəyərləndirir. Gələn qonaqlar təkcə dincəlmirlər, eyni zamanda o ölkənin, o xalqın inkişafı, milli mədəniyyəti, adət-ənənələri, tarixi, mətbəxi və digər xüsusiyyətləri ilə yaxından tanış olur, öz ölkələrinə bu ölkədən zəngin təəssüratlar aparırlar. Bu isə ən güclü təbliğatdır.

Son vaxtlar ölkəmizdə də turizmin inkişafına, genişlənməsinə, dünya standartları səviyyəsində qurulmasına ciddi diqqət yetirilir. Bu, biz gəncləri xüsusilə sevindirir. Digər sahələrdə olduğu kimi turizmdə də işi lazımi səviyyədə quran, təşkil edən, irəli aparan mütəxəssislərdir. Sahə yeni olduğundan, yeni düşüncəli insanlara burada daha çox ehtiyac var. Azərbaycan Turizm və Menecment Universitetinin açılması da məhz bu zərurətdən yaranıb. Mən marketinq ixtisasını seçmişəm. Bu ixtisasda çalışanın əsas vəzifəsi münasibətlər yaratmaq, əlaqələr qurmaqdır. Elə bilirəm qazanacağım ixtisasla ölkəmizin, o cümlədən doğma Neftçalamızın turizm potensialından daha səmərəli istifadə olunmasına az da olsa öz töhfəmi verə biləcəyəm.



Habil ƏSƏDOV,
Azərbaycan Turizm və Menecment Universitetinin tələbəsi

Yay istirahəti

TƏHSİL İŞÇİLƏRİNƏ QAYĞI DİQQƏT MƏRKƏZİNDƏDİR

Təhsil işçilərinin ehtiyac və qayğılarının öyrənilib ödənilməsi, qabaqcıl müəllimlərin, əlaçı şagirdlərin mükafatlandırılaraq yeni nailiyyətlərə ruhlandırılması, digər bu kimi məsələlər bizim əsas fəaliyyət sahələrimizdir. Bu məqsədlə müxtəlif nominasiyalar üzrə müsabiqələr keçirir, qaliblərı mükafatlandırır, qabaqcılları ruhlandırırıq. Bu il keçirdiyimiz "İlin ən yaxşı təhsil müəssisəsi" və "İlin peşəkar gənci" nominasiyaları üzrə müsabiqələr daha maraqlı keçmiş, daha yaddaqalan olmuşdur. Birinci nominasiya üzrə müsabiqədə şəhər 2 saylı tam orta məktəbi, ikinci nominasiya üzrə müsabiqədə isə şəhər 3 saylı tam orta məktəbinin direktoru Vüqar Dadaşov qalib gəlib.

Bizim əsas qayğılarımızdan biri də ehtiyacı olan təhsil işçilərinə maddi yardımların göstərilməsi, onların əmək və istirahət şəraitlərinin yaxşılaşdırılmasıdır. Başa vurduğumuz dərs ili ərzində 200 nəfərə yaxın təhsil işçisinə maddi yardım göstərmişik. Yay tətili başlayandan bəri isə ehtiyacı olanların sanatoriya və istirahət evlərinə göndərilməsi ilə məşğuluq.

"Abşeron", "Şıx", "Bilgəh", "Naftalan", "Günəşli", "Nabran" və digər bu kimi istirahət evləri, sanatoriyalar bizim ən çox əlaqə saxladığımız, istirahətə adam göndərdiyimiz istirahət mərkəzlərindəndir. Ölkəmizin cənub və qərb bölgələrindəki istirahət evləri, sanatoriyalar da əlverişlidir. Hər istirahət evinin, hər sanatoriyanın da öz yeri, öz xüsusiyyəti, öz üstünlüyü, ya hansısa bir çatışmayan cəhəti var. Bir istirahət evi, sanatoriya başqasına bənzəmir. Onların bəziləri daha çox gənclərin, cavanların istirahəti üçün əlverişlidirsə, başqaları daha çox xəstəhal, yaşlı adamlar üçün nəzərdə tutulmuşdur. Çalışırıq istirahət evlərinin, sanatoriyaların şəraitini, vəziyyətini diqqətlə öyrənək, müraciət edənləri yaşlarına, səhhətlərinə uyğun səmtlərə yönəldək.

Hazırda ən dəbdə olan istirahət yerlərindən biri Nabrandakı təhsil istirahət mərkəzidir. Burada həm dəniz, çimərlik var, həm dağ, meşə, yaşıllıq. Buna görə yay aylarında çoxları Nabranı üstün tutur, ora can atır. Şəhər 4 saylı tam orta məktəbinin riyaziyyat müəllimi Svetlana Rzayeva, Xolqaraqaşlıdan Mehrab və Arzu Mehrabovlar və bir çox başqaları bu yay Nabran istirahət mərkəzində dincəlmiş, oradan zəngin təəssüratlarla geri dönmüşlər. Ümumilikdə yay aylarında Nabran istirahət mərkəzinə rayonumuzdan 7 nəfər təhsil işçisi göndərmişik.

Təhsil işçilərimizin ən çox can atdıqları istirahət guşələrindən biri də "Bilgəh" sanatoriyasıdır. Bu sanatoriyanın əsas üstünlüyü orada dincələnlərə yüksək səviyyədə müalicə kurslarının keçirilməsidir. Bu il Yuxarı Qaramanlı tam orta məktəbinin müəllimi Abdulla Ağazadə, peşə məktəbinin müəllimi Günel Həsənova və daha bir pedaqoji işçimiz Bilgəhdə dincələrək müalicə kursları almışlar. Bundan əlavə biz indiyə qədər 2 nəfər təhsil işçisini "Naftalan" sanatoriyasına, 3 nəfər təhsil işçisini "Günəşli" sanatoriyasına, 3 nəfər təhsil işçisini "Şıx" sanatoriyasına göndərmişik. Ümumiyyətlə, yay aylarında 20 nəfər təhsil işçisinə müxtəlif istirahət evlərində və sanatoriyalarda istirahət edib dincəlmələri, müalicə kursları almaları üçün göndəriş vermişik. Ötən ilki yay mövsümündə isə biz 19 nəfər təhsil işçimizi istirahətə göndərmişdik.

Yay fəsli hələ davam edir. Çalışacağıq bundan sonra da bizə müraciət edənlərə həssaslıqla yanaşaq, onları arzu etdikləri istirahət guşələrinə yola salaq. Bu bizim tək vəzifə borcumuz deyil, həm də arzumuz, istəyimiz, qayəmizdir.

Asudə CƏFƏROVA,
Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Neftçala Rayon Komitəsinin sədri

POEZİYA GÜŞƏSİ

ANA

Analar müqəddəs, analar ulu,
Anadır övladın ilk keşikçisi.
Analar bəşərin ülvisi, nuru,
Anadır torpağın sülh keşikçisi.

Analar zamanın bəstəkarları,
Analar dünyanın duyan qəlbidir.
Analar səhərin müjdəçiləri,
Analar övladın vuran qəlbidir.

SƏNİN DEYİLƏM

Açılan sabahla açma qapımı,
Onsuz da mən sənin, sənin deyiləm.
Boylanıb həsrətlə sorma halımı,
Qeydimə qalsan da sənin deyiləm.

Mənsiz kədərəmi tuş olub dünyan?!
Axan göz yaşımdan yaş olub dünyan?!
Yoxsa ki, fərəhə daş olub dünyan?!
Unut ki, sən məni, sənin deyiləm.

Gələn baharımı sən bilənmədin,
Sevincə büründüm, sən gülənmədin,
Çağırdım, hayıma sən gələnmədin,
Unut ki, sən məni, sənin deyiləm.

Bəxtimə doğulan mələk deyilsən,
İlk eşqə boylanan çiçək deyilsən,
Mənə gərək olan ürək deyilsən,
Unut ki, sən məni, sənin deyiləm.

İLK ANDIM

Hərdən rast gəlirəm sevdiyim qıza,
Çağlayır sevincim, çoşub çay olur.
Özüm də bilmədən o günkü anım
Dönüb bir sevdalı ömür, ay olur.

Baxışı könlümə şəfəq çiləyir,
Təbəssüm mehrimdə günahım olur.
Elə ki, kipriklər salama gəlir,
Gözləri ümidim, pənahım olur.

Bir eşqin şəninə nəğmə qoşuram,
Saf duyğu, məhəbbət qanadım olur.
Dünyada bir dünya kəşf eləyirəm
Sevgi bu dünyada ilk andım olur.

Minəxanım MİKAYILOVA

ANAMA OXŞAYIRSAN

Sən uzun hörüklü, sən mavi gözlü,
Ağzında gör neçə qızıl dişin var.
Söylə adın nədir, a şirin sözlü,
Gör necə anama bənzəyişin var.
Başqası deyiləm, utanma məndən,
Ölüncə surətin gözümdə qalar.
Yaxın gəl, saçını bir oxşayım mən,
Gözəlsən — bu kəlmə sözümdə qalar.
Mən səni görəndən kövrəlib sazım,
Çaldığım havalar düşübdür düyün.
Deyirəm nə ola kaş, mənim qızım,
Səadət gününü görəydim bir gün.
Sənə deyərdilər: gözlərin aydın,
Sorağın çatıbdır şair oğluna.
Evlənib oğlumla ailə quraydın,
Olaydın həm gəlin, həm də ki, ana.
Gəl küsmə, incimə şair əlindən,
O sevinc diləyər o mavi gözə.
Nə vaxt ki, kövrəlsəm hicran qəmindən
Anamı görməyə gələrəm sizə.
Qalıbdır surəti, həm adı yadda
Qəlbimdə bir zirvə, bir dağdır anam.
Məzarı olsa da Cəngəmiranda,
Xəzər torpağında uşaqdır anam.

HANI?

Xoş gördük meşələr, çəmənlər, salam,
Gəldim hamınızdan xəbərdar olam.
Bir danış, ey mənim çiçəkli talam,
O ötən xoş günüm, xoş anım hanı?

İlk eşqin sənə ruh gətirməyibsə,
Baxtında görməsin günahı kimsə.
Təqsirkar mənəmsə, dönük mənəmsə,
Bəs onda vəfalı qalanım hanı?

Hamı qarşılayır gələn baharı,
Göstərə bilmirəm şahid çinarı.
Ayrılıq zamanı bir soruş barı
Dalımca gözləri dolanım hanı?

Bilməzdim bu qədər eşqin gücü var,
Əzabı qismətim, həmdəmim olar.
Acısı, şirini qəlbimə dolan
Canımı bu dərdə salanım hanı?

Eşqin yollarında qərib avazam,
Sənsiz bu yollarda qorxuram azam.
"Əsli və Kərəm"ə köklənmiş sazam,
Onu dindirənim, çalanım hanı?

KÖRPƏ

Ağızın, dodağın gül qoxuludur,
Gülüb-ağlamağın qoşadır, qoşa.
O köşək gözlərin bal yuxuludur,
Həyat sənin üçün sanki tamaşa.
Günəş də, qürub da sənə bir beşik,
Heyrət baxışında, heyrət üzündə.
Hələ heç sıxmayır səni ev-eşik,
Dünya çox kiçikdir hələ gözündə.
Qəlbini isidən laylay səsidir,
Hissimiz, duyğumuz arayır onu.
Beşiyin elə bil yer kürəsidir,
Analar laylayla qoruyur onu.
Sənin nəzərində hamı yanılır,
Xəbəri gec tutur qəfil sazaqdan.
Həyat gözlərində hey nağıllanır,
Sən isə baxırsan ona uzaqdan.
Analar böyüdür, bəsləyir sizi,
Duyur nurunuzu əyri də, düz də.
Xoş bir gələcəyə səsləyir sizi,
Daim böyüyürsüz gözlərimizdə.

Atamalı TALIBOĞLU

Əhaliyə göstərilən ödənişli xidmətlər

Neftçala rayonunda cari ilin altı ayı ərzində rayon əhalisinə 13400,0 min manatlıq ödənişli xidmət göstərilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə faktiki qiymətlərdə 1212,0 min manat və ya 9,9 faiz, müqayisəli qiymətlərlə isə 60,6 min manat və ya 0,5 faiz çoxdur.

Rayonda əhaliyə göstərilən ödənişli xidmətlərin xüsusi çəkisi respublika səviyyəsinin 0,36 faizini, aran iqtisadi rayonu səviyyəsinin isə 3,5 faizini təşkil etmişdir. 2017-ci ilin altı ayı ərzində əhaliyə göstərilən ödənişli xidmətlərin həcmində fiziki şəxslərin xüsusi çəkisi 80,6 faiz, rəsmi qeydiyatdan keçmiş dövlət mülkiyyəti müəssisələrinin xüsusi çəkisi 19,3 faiz, rəsmi qeydiyatdan keçmiş qeyri-dövlət mülkiyyəti müəssisələrinin xüsusi çəkisi isə 0,1 faiz təşkil etmişdir.

Hesabat dövründə əhaliyə göstərilən ödənişli xidmətlərin həcmində (məişət xidməti daxil olmaqla) qeyri-dövlət mülkiyyəti müəssisələrinin (fiziki şəxslər də daxil olmaqla) həcmi 10818,9 min manat, xüsusi çəkisi isə 80,7 faiz təşkil etmişdir.

Cari ilin altı ayında əhaliyə göstərilən ödənişli xidmətlərin həcmində (məişət xidməti daxil olmaqla) dövlət mülkiyyəti müəssisələrinin payı 2581,1 min manat və ya 19,3 faiz olmuşdur ki, bu da ötən ilin müvafiq dövründən faktiki qiymətlərlə 12,2 faiz və ya 281,4 min manat, müqayisəli qiymətlərlə isə 2,6 faiz və ya 59,6 min manat çoxdur.

Hüquqi şəxslər tərəfindən 2017-ci ilin altı ayında məişət xidməti də daxil olmaqla əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi 2595,3 min manat olmuşdur. Bu isə keçən ilin müvafiq dövrünə nisbətən faktiki qiymətlərlə 10,0 faiz və ya 236,6 min manat, müqayisəli qiymətlərlə 0,6 faiz və ya 13,6 min manat çox deməkdir.

Digər sahələrin (sənaye, kənd təsərrüfatı, tikinti, sosial və s.) müəssisələri tərəfindən hesabat dövründə əhaliyə 2591,6 min manatlıq ödənişli xidmət göstərilmişdir. Bu, 2016-cı ilin müvafiq dövrünə nisbətən faktiki qiymətlərlə 236,9 min manat və ya 10,0 faiz, müqayisəli qiymətlərlə isə 14,2 min manat və ya 0,6 faiz çoxdur.

Fiziki şəxslər tərəfindən hesabat dövründə əhaliyə 10804,7 min manatlıq ödənişli xidmətlər göstərilmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən faktiki qiymətlərlə 9,9 faiz və ya 975,4 min manat, müqayisəli qiymətlərlə isə 0,5 faiz və ya 47,0 min manat çox deməkdir.

Cari ilin altı ayı ərzində rayon əhalisinə göstərilən məişət xidmətinin həcmi 1980,0 min manat olmuşdur. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 140,0 min manat və ya 7,6 faiz çox deməkdir.

Hesabat dövründə əhaliyə göstərilən məişət xidmətinin həcmində qeyri-dövlət mülkiyyəti müəssisələrinin payı 3,7 min manat, xüsusi çəkisi isə 0,2 faiz olmuşdur. Fiziki şəxslər tərəfindən hesabat dövründə əhaliyə 1976,3 min manatlıq məişət xidməti göstərilmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən faktiki qiymətlərlə 7,6 faiz və ya 140,3 min manat artım, müqayisəli qiymətlərlə isə sabit qalmaq deməkdir.

Tahirə MƏNƏFOVA,
rayon statistika idarəsi rəisinin mavini

Kürqarabucaq kənd sakini Ağasadıq Salman oğlu Aslanovun adına verilmiş 13 avqust 2003-cü il tarixli, JN:0255 (KOD80702058) nomrəli torpağa mülkiyyət hüququna dair Dövlət aktı itdiyinə görə etibarsız sayılır.

Qaçaqkənd kənd sakini Rakizə Sadıq qızı Həsənovanın adına verilmiş 6 yanvar 1999-cu il tarixli, JN:188 (KOD80706018) nomrəli torpağa mülkiyyət hüququna dair Dövlət aktı itdiyinə görə etibarsız sayılır.

Baş redaktor H.Ə.ƏSƏDOV

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə №268

Ünvanımız: Az 4700, Neftçala şəhəri, H.Əliyev prospekti 38, Telefon: 3-44-03
Mobil: (050) 333-72-30, (055) 669-56-71
H/H: №AZ95AIIB33080019446400258164
VÖİN: 6500044671

Qəzet "GÜNDOĞAR"ın kompüter mərkəzində yığılıb səhifələnmiş və "BZ" mətbəəsində çap olunmuşdur.
Dizayn Fərhad Ağayevin, fotolar Muradındır.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Tiraj: 650 Sifariş №26
Bir nömrənin qiyməti: 40 qəpik.